## Azərbaycanda həbsdə olan 4 erməni hərbçinin cəzası başa çatıb

Onların ölkəsinə təhvil veriləcəyi gözlənilir



**Ermənistan vətəndaşlarından ibarət terrorçu silahlı birləşmənin tərkibində olmaqda ittiham olunan 4 nəfər barəsində kassasiya şikayətinə baxılıb.**

Ali Məhkəmənin saytı xəbər verir ki, onların kassasiya şikayəti qismən təmin edilib. Həmin şəxslərə verilən cəzalar azaldılıb və barələrində qəti olaraq 1 il 8 ay 25 gün müddətinə azadlıqdan məhrumetmə cəzası saxlanılıb.

Ermənistan vətəndaşı olan 4 nəfərin cəza müddəti başa çatdığından onlar azadlığa buraxılıb.

(səh.2)



## Azərbaycana qar yağıb

**Azərbaycanın yüksək dağlıq ərazilərinə qar yağıb.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Qeyd olunub ki, Şahdağ Hidrometeoroloji stansiyasının məlumatına əsasən soyuq atmosfer cəbhəsinin ölkə ərazisinə daxil olması nəticəsində gecə saatlarında Bazardüzü, Şahdağ, Tufandağ ərazilərində 3500 m yüksəkliklərə qar yağıb.


№ 161 (5683), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 sentyabr 2022-ci il (cümə)




## Kraliça vəfat edib

II Elizabetin ailə üzvləri Balmoral qəsrinə gəlib

**Böyük Britaniya Kraliçası II Elizabet 96 yaşında vəfat edib.**

Britaniya KİV-i xəbər verir ki, Kraliça II Elizabet Şotlandiyada Balmoral qəsrində vəfat edib.

Məlumata görə kraliçanın səhhətinin pisləşməsindən sonra ailə üzvlərindən Şahzadə Çarlz və Şahzadə Anne, Balmoral qəsrinə gəlib.

Kraliçanın digər ailə üzvlərindən Şahzadə Ulliam və Herri isə Şotlandiyanın Aberdin şəhərindən qəsrə doğru yola düşüblər.

# Xovayev Bakıdadır, İrəvana da gedəcək

Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması perspektivləri müzakirə olunur



**"Münaqişə sonrası nizamlanma ilə bağlı Rusiyanın Bakı və İrəvanla əməkdaşlığı, fəallığı və iş rejiminin tempi azalmayıb. Son bir neçə ildə yüksək və ali səviyyədə, diplomatlar və qurumlararası və yeni formalaşdırılan təmaslar mexanizmləri səviyyəsində təmasların intensivliyi bunu bir daha təsdiq edir".**

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

O, Moskvanın Bakı və İrəvanla təmaslarının dəmək olar ki, gündəlik formatda baş verdiyini söyləyib: "O ki qaldı ali səviyyədə görüşlərin mümkünlüyünə, xatırladım ki, bununla bağlı prezident administrasiyası şərh verə bilər".

Zaxarova bu günlərdə Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi Bakıda səfərdə olduğunu bildirib.

(səh.2)



## Qadağa aradan qaldırılır

Dövlət mətbuatı orqanları işçiləri siyasi partiya üzvü ola biləcək

**Dövlət mətbuatı orqanlarının işçilərinin siyasi partiyanın üzvü olmasına qoyulan qadağa aradan qaldırılır.**

Hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanundan fərqli olaraq yeni qanun layihəsinin ilkin variantında dövlət mətbuatı orqanlarının işçiləri üçün belə bir məhdudiyyət nəzərdə tutulmur.

"Siyasi partiyalar haqqında" yeni qanunla bağlı ilkin ictimai dinləmənin vaxtı açıqlanıb. Siyasi partiyaların yaradılmasına və fəaliyyətinə yol verilməyəcəyi hallar müəyyənləşir İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım şurasının üzvləri, baş direktoru və onun müavinlərinin siyasi partiya üzvlüyünə qoyulan məhdudiyyət isə yeni qanun layihəsinə də əksini tapıb. Digər yenilik notariuslarla bağlıdır. Yeni qanun layihəsinə əsasən, notariuslar siyasi partiyanın üzvü ola bilməzlər. Həmin şəxslər işə (xidmətə) başlamazdan qabaq siyasi partiyanın üzvlüyündən çıxmalıdırlar. Hesablama Palatasının üzvləri də siyasi partiyanın üzvü ola bilməyəcəklər.

## Rusiya təyyarələrindən istifadə etməyin!

Səfirlik Ermənistandakı ABŞ vətəndaşlarına xəbərdarlıq edib



**ABŞ Ermənistandakı vətəndaşlarını Rusiyaya məxsus aviadaşıyıcılardan istifadə etməməyə çağırıb.**

"Report" xəbər verir ki, müraciəti ABŞ-ın Ermənistandakı səfirliyinin təhlükəsizlik xidməti yayıb. Səfirliyin saytında dərc olunmuş ismarışda bildirilib ki, Rusiya aviadaşıyıcıları, təyyarələri Ermənistanda fəaliyyətini davam etdirir. Ona görə də səfirlik sentyabrın 8-də yaydığı xəbərdarlıqda Ermənistandakı ABŞ vətəndaşlarını diqqətli və ehtiyatlı olmağa çağırıb. Diplomatik nümayəndəlik vətəndaşlarını məlumatlandıraraq qeyd edib ki, Federal Aviasiya Administrasiyası (FAA) Rusiya aviadaşıyıcılarının Mülki Aviasiya Təşkilatının (ICAO) nəzarət üzrə təhlükəsizlik standartlarına cavab verməməsi faktını nəzərə alaraq bu ölkənin hava təhlükəsizliyi reytinqini aşağı salıb.

# Müharibə alovlanır

Ukrayna-Rusiya savaşı təhlükəli həddə yaxınlaşır



**"Ukraynadakı müharibə yaxın vaxtda bitənə oxşamır. Rusiya ilə Ukrayna arasında daim balanslı olmağa çalışdıq. Bundan sonra da belə olacaq".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Ərdoğan vurğulayıb ki, Qərbin indiki münasibəti doğru deyil:

"Qərbin siyasəti təhrik üzərində qurulub. Belə olan halda nəticə əldə etmək mümkün deyil. Müharibənin məğlubu çoxdur. Qalibi isə yoxdur.

(səh.4)



## Blinken Kiyevdə Zelenski ilə görüşüb

**Kiyevdə səfərdə olan ABŞ Dövlət Katibi Entoni Blinken Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşüb.**

APA-nın CNN-ə istinadən xəbərinə görə, görüş zamanı Blinken Zelenskini ABŞ-ın sonuncu təhlükəsizlik yardım transı ilə bağlı məlumatlandırıb.

"Prezident Bayden açıq şəkildə bildirib ki, biz Ukrayna xalqını lazım olduğu qədər dəstəkləyəcəyik. Mən bu mesajı hələ də suveren və müstəqil Ukraynanın paytaxtı olan, elə bu cür də qalacaq Kiyev şəhərində bir daha Prezident Zelenski və onun komandası üçün vurğuladım", - deyə Blinken bildirib.

## Koronavirusdan 5 nəfər vəfat edib

Daha 396 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 396 yeni yoluxma faktı qeydə alınıb, 553 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 5 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 816 985 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 804 115 nəfər müalicə olunaraq sağalıb, 9 843 nəfər vəfat edib, aktiv xəstə sayı 3 027 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 772, hazırkı dövrədək isə 7 184 639 test aparılıb.*

## Məhkəmə hökm çıxardı

Bakıda anasının başını kəsən şəxs psixiatriya xəstəxanasına yerləşdirilib



**Anasını qətlə yetirməkdə ittiham olunan Samir Cəfərovun cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmə ittiham olunan şəxsin psixi problemləri olduğu qənaətinə gələrək, onun məcburi olaraq psixiatriya xəstəxanasına müalicəyə yerləşdirilməsi barəsində hökm qəbul edib.

(səh.5)



## Qərb ölkələrində sosial iğtişaş, enerji böhranı gözlənilir

Pərviz Heydərov: "Böyük həcmdə rus qazından asılı olan Avropa ölkələri üçün qarşıdan gələn qışın hansı mənfi nəticələr doğuracağını dəqiq proqnozlaşdırmaq qeyri-mümkündür"

(səh.3)

## "Qarşıdakı qurultayımız növbəli və planlıdır"

Yadigar Məmmədli: "Dünyanın heç bir yerində mətbuat kənardan idarə olunmur"

(səh.4)



# Xovayev Bakıdadır, İrəvana da gedəcək

## Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması perspektivləri müzakirə olunur



**”Münaqişə sonrası nizamlanma ilə bağlı Rusiyanın Bakı və İrəvanla əməkdaşlığı, fəallığı və iş rejiminin tempi azalmayıb. Son bir neçə ildə yüksək və ali səviyyədə, diplomatlar və qurumlararası və yeni formalaşdırılan təmaslar mexanizmləri səviyyəsində təmasların intensivliyi bunu bir daha təsdiq edir”.**

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

O, Moskvanın Bakı və İrəvanla təmaslarının demək olar ki, gündəlik formatda baş verdiyini söyləyib: ”O ki qaldı ali səviyyədə görüşlərin mümkünlüyünə, xatırladım ki, bununla bağlı prezident administrasiyası şərh verə bilər”.

Zaxarova bu günlərdə Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi Bakıda səfərdə olduğunu bildirib. **Onun sözlərinə görə, rusiyalı diplomat Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması perspektivlərini müzakirə etmək üçün Bakıya gedib:** ”Yaxın vaxtlarda Xovayev bu məqsədlə İrəvana səfər etməyi planlaşdırır”.

Mariya Zaxarova Rusiyanın üçtərəfli bəyanatların icrasına birinci dərəcəli önəm verdiyini əlavə edib.

”Ümumilikdə Rusiya tərəfi Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası, vətəndaş cəmiyyətlərinin xətti ilə Bakı ilə İrəvan arasında təmasların möhkəmlənməsi daxil olmaqla ali səviyyədə imzalanan Üçtərəfli bəyanatların icra olunmasını birinci dərəcəli önəm verir. Ardıcıl olaraq bütün səviyyələrdə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin qeyd olunan razılaşmaları tam həcmdə həyata keçirilsin. Bu, Cənubi Qafqazda dayanıqlı sülhün formalaşması şərtlərini təmin edəcək, hansı ki, bu, təkcə region dövlətlərinin deyil, o cümlədən onların qonşularının da maraqlarına cavab verir”. (apa)

*Qeyd edək ki, ABŞ Dövlət Departamentinin Qafqaz üzrə yeni baş məsləhətçisi Filip Riker də regionda səfərdədir. Dünən Ermənistana gələn Rikerin Azərbaycan və Gürcüstana da səfəri nəzərdə tutulur.*

**Azərbaycan Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə məktəbdə yaradılan şərait barədə məlumat verdi.**



# Bakıda iki rayonda yeni məktəb binaları tikilib

## Prezident təhsil ocaqlarında yaradılan şəraitlə tanış olub

Bildirildi ki, 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı var idi. Azərbaycan Prezidentinin ”Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında” 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib. Eyni vaxtda 2304 şagirdin təhsil ala biləcəyi məktəb bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir. Qeyd olundu ki, dördmərtəbəli korpusda sinif, əmək, hərbi, rəsm, həkim, musiqi və müəllimlər otaqları, laboratoriyalar, kitabxana, yeməkxana, idman, aerobika və akt zalları var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır. Beləliklə, məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun ”Yeniləşən Azərbaycana yeni məktəb”, ”Təhsilə dəstək”, ”Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.

Dövlət başçısı Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik yeni binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 5454 kvadratmetrdir. Prezident İlham Əliyev məktəbin yeni binasının çağırışa qədər hərbi hazırlıq otağında, ekosinifdə, biologiya kabinetində, informatika və rəsm otaqlarında, yeməkxanada, əmək otağında və fizika kabinetində yaradılan şəraitlə tanış oldu. Qeyd edək ki, təhsil müəssisələrinin işinin, tədris proqramlarının müasir çağırışlara uyğunlaşdırılması, müasir əmək bazarına uyğun kadr potensialının formalaşdırılması dövlətimizin prioritetləri sırasındadır. Müasir məktəblərin tikilərək istifadəyə verilməsi, təhsil müəssisələrində bərpa və yenidənqurma işlərinin ardıcıl xarakter alması da bu prosesin tərkib hissəsidir. Bu strategiyaya Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan ”Yeniləşən Azərbaycana - yeni məktəb” proqramı ilə davamlı şəkildə dəstək verir...

# Regiondakı vəziyyət müzakirə olunub

## Ceyhun Bayramov İspaniya Senatının prezidenti ilə görüşüb



**Azərbaycanın Ceyhun Bayramov İspaniyaya rəsmi səfəri çərçivəsində İspaniya Krallığının Senatının sədri Ander Xil Qarsiya ilə görüşüb.**

”Şərq” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliy məlumat yayıb.

Nazir Ceyhun Bayramov son 30 il ərzində Azərbaycan-İspaniya diplomatik münasibətlərinin dostluq və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında qurulduğunu, iqtisadiyyat, ticarət, energetika, humanitar, təhsil, turizm və yüksək texnologiyalar sahəsində geniş əməkdaşlıq perspektivləri olduğunu vurğulayıb. Parlamentlərarası münasibətlərin ikitərəfli əlaqələrə böyük töhfə verəcəyi diqqətə çatdırılıb. Nazir post-münaqişə dövründə bölgədə sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına dair Azərbaycanın baxışları və addımları, ölkəmiz tərəfindən aparılan bərpa və yenidənqurma işləri, nəqliyyat-kommunikasiya xətlərinin bərpası barədə məlumat verib.

Senatın sədri Ander Xil Qarsiya xarici işlər nazirinin səfərinin, diplomatik akademiyalar arasında memorandumun imzalanmasının ikitərəfli münasibətlərin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını bildirib. Səfər zamanı keçirilmiş ikitərəfli görüşlərin siyasi, iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün önəmli olduğu qeyd edilib. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində əməkdaşlıq üzrə razılaşmanın icrasına İspaniyanın da alternativ enerji resurslarının inkişaf etdirilməsi baxımından töhfə vermək imkanlarının olduğu diqqətə çatdırılıb.

Görüş zamanı, Azərbaycan Milli Məclisinin Sədrinin 2021-ci ildə Madridə səfəri xatırlanıb və Qoşulmama Hərəkatının patlament şəbəkəsinin yaradılması qərarının məhz Madriddə verildiyi bildirilib.

Daha sonra ikitərəfli gündəlikdə duran məsələlər, regional vəziyyət barədə fikir mübadiləsi aparılıb.

**Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri təyin olunması münasibətilə xanım Elizabet Trassa təbrik məktubu göndərib. Məktubda Azərbaycanla Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətlərinin birləşdirdiyi qeyd olunub.**

Vurğulanıb ki, dövlətlərarası əlaqələrimizin, siyasi, iqtisadi-ticari, enerji və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın hazırkı səviyyəsi xüsusi məmnunluq doğurur: ”Birləşmiş Krallıq **teji tərəfdaşlıq edən iki dövlət arasındakı sazişlərlə, müqavilələrlə tənzimlənir. Ekspertin sözlərinə görə, Böyük Britaniya şirkətləri 30 ilə yaxındır Azərbaycana investisiya qoymaqdadır:**



# Dünyada yeni nizam formalaşır

## Elizabet Trassın baş nazirliyi dövründə Böyük Britaniya-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edəcək

Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biridir. Ölkənizi təmsil edən şirkətlər, o cümlədən neft-qaz hasilatında etibarlı tərəfdaşımız olan BP Azərbaycanda uğurla fəaliyyət göstərir. Bir sıra vacib layihələrin həyata keçirilməsində iştirak edirlər. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uzunmüddətli və məhsuldar işbirliyimiz qlobal enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır”.

**Politoloq, Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Azərbaycan və Böyük Britaniya əlaqələri həmin ölkədə hökumətin dəyişməsi ilə deyil, stra-**

”Qərbin enerji diversifikasiyasını London-Bakı münasibətləri də dəstəkləyir. O baxımdan Britaniyada hökumətin dəyişməsi Azərbaycanla əlaqələrə mənfi təsir göstərməyəcək. Dövlətlərarası münasibətlər daha önəmli və əsasdır. Dünyada yeni nizam formalaşır və bu nizamda Böyük Britaniya Azərbaycanla əməkdaşlığa böyük önəm verir. Dövlət başçısının Britaniyanın xanım baş nazirinə təbrik məktubu və orada qeyd olunan məqamlar əhəmiyyətlidir. Düşünürəm ki, Britaniyanın Baş naziri E.Trass da Cənubi Qafqaz siyasətinə və Azərbaycana daha çox diqqət ayıracaq. 44 günlük Qarabağ müharibəsindən sonra London-Bakı münasibətlərində yeni mərhələ başlayıb. Sabiq baş nazir Boris Consonun Türkiyə və Cənubi Qafqaz siyasəti bir qədər gücləndirilmiş formada davam etdiriləcək. Ümumiyyətlə, Britaniyada hökumət dəyişikliyini siyasi böhran kimi dəyərləndirməyi doğru saymıram. Bu, ölkə siyasətinin yenilənməsi və daha keyfiyyətli müstəviyə daşınmasıdır. Britaniyada hökumət dəyişiklikləri ölkənin siyasi-iqtisadi həyatında böhran yaratmır. Böyük Britaniya oturuşmuş, təməl prinsipləri olan dövlətdir. Londonun Cənubi Qafqazda öz prioritetləri var və Azərbaycan burada xüsusi önəm kəsb edir”.

**İsmayıl Qocayev**

# Azərbaycanda həbsdə olan 4 erməni hərbçinin cəzası başa çatıb

## Onların ölkəsinə təhvil veriləcəyi gözlənilir

**Ermənistan vətəndaşlarından ibarət terrorçu silahlı birləşmənin tərkibində olmaqda ittiham olunan 4 nəfər barəsində kassasiya şikayətinə baxılıb.**

Ali Məhkəmənin saytı xəbər verir ki, onların kassasiya şikayəti qismən təmin edilib. Həmin şəxslərə verilən cəzalar azaldılıb və barələrində qəti olaraq 1 il 8 ay 25 gün müddətinə azadlıqdan məhrumetmə cəzası saxlanılıb.

Ermənistan vətəndaşı olan 4 nəfərin cəza müddəti başa çatdığından onlar azadlığa buraxılıb.

Lakin hökmlərində qeyd edilib ki, cəza müddəti başa çatan şəxslər Azərbaycan hüdudlarından dərhal çıxarılmalıdır.

Qeyd edək ki, Ermənistan Respublikasının vətəndaşları olan silahlı dəstələrin üzvləri Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 13 dekabr 2020-ci il tarixdə keçirilmiş antiterror əməliyyatı nəticəsində tərksilah edilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə onlar 6 il müddətinə azadlıqdan məhrum edilib.

# Qarabağdakı qanunsuz erməni silahlıların hər addımı izlənilir

## Proses göstərir ki, Azərbaycan istədiklərinə səssiz şəkildə nail olmağı daha məqsədəuyğun sayır

**“Azərbaycan Silahlı Qüvvələri özünün balansındakı ən üstün texnologiyalar vasitəsilə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yaşayan ermənilərin fəaliyyətini izləyə bilir”. Bu barədə ”Şərq”ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, bu ilin avqustun 3-də Azərbaycan Ordusunun həyata keçirdiyi ”Qisas” antiterror əməliyyatını hərbi cəhətdən analiz edərkən həmin fikir güclənir:**

”Hədəfləri dəqiqliklə məhv edən bu cür hərbi əməliyyatlarda ən müasir texnologiyaların təmin etdiyi kəşfiyyat məlumatları böyük əhəmiyyət daşıyır. Azərbaycan tərəfi onsuz da dəfələrlə bəyan edib ki, Qarabağdakı qanunsuz erməni silahlı dəstələrinin hər addımı izlənilir. Çünki 2020-ci ilin 10 noyabrından sonra Azərbaycan sülhməramlıların xidmət etdiyi ərazilərə vizual giriş-çıxışa nəzarət imkanlarını genişləndirib. Azərbaycan 10 noyabrdan sonra postmüharibə reallıqlarına uyğun əldə etdiyi üstünlüklərlə böyük kəşfiyyat nəzarət zonası da formalaşdırıb. Ola bilər ki, Ermənistanda və ya Qarabağda hansısa hərbçi erməni fantaziyalarına qərq olaraq revanşist duyğularını qabardır. Lakin proseslər göstərir ki, onların arzusu boğazlarına ilişən kal armuda çevrilib. Azərbaycan ”Qisas”la əlavə üstünlüklər də qazandı və bu qazancını Laçın şəhərini, Zabux və Sus kəndlərini nəzarətə götürməsi ilə gücləndirdi. Azərbaycan indi Ermənistanla sərhədin bütün zonalarından Ermənistanın içərilərini ən müasir vasitələrlə nəzarətdə saxlayır”.




**A.Kərimova görə, sərhəd zonası ilə Qarabağa nəzarət paralellik təşkil edir:** ”Bu strateji mənzərəni strateji zərurətlərdən irəli gələn digər hibrid savaş elementləri tamamlayır. Xankəndi, Xocalı, Ağdərə şəhərlərində yaşayan ermənilər və ya əli gicişib yenidən silaha əl atmaq istəyən terrorçular Azərbaycanın etdiyi həmləri yəqin ki, görürlər, ediləbiləcəkləri isə hiss edirlər. Bu təkcə ”Bayraktar”, komando birliklərinin, xüsusi təyinatlı elit dəstələrin yaratdığı xof deyil, ortada başqa gerçəkliklər də var. Gedişatlar göstərir ki, Azərbaycan istədiklərinə səssiz şəkildə nail olmağı daha məqsədəuyğun sayır. Bu isə erməni ağlında olan qorxu yarada biləcək məchul qüvvələr anlayışını daha da genişləndirir. Müharibə və ya ona oxşar şəraitlərdə məchul güclər düşməndə qorxu hissini alovlandırır və şəxsi heyət arasında isterik vəziyyət hökm sürür. Azərbaycan bunu 44 günlük Vətən müharibəsində elit qüvvələrin əməliyyatları, dəqiq silahların tətbiqi ilə göstərdi. Bakı müharibənin nəticələrini təhlil etdikdən sonra çatışmazlıqları da doldurur və ən müasir silahları, nəzarət edən texnologiyaları almaqda davam edir. Alınan silah və təhlükəsizlik-müşahidə cihazlarının bir hissəsi sərhədə və Qarabağa yönləndirilir. Hətta Azərbaycanda meşəlik əraziləri belə müşahidə altında saxlaya bilən super cihazların olduğu qənaətindəyəm, çünki ermənilər nə açıqlıqda, nə də meşəliklərdə özlərinə mövqe qura bilirlər. Azərbaycan ermənilərin ən sıx yaşadığı Xankəndinin və Ağdərənin içərilərinə qədər hər şeyi nəzarətdə saxlayır. Bu müşahidə imkanları daha da genişlənəcək. Çünki Azərbaycan dövlətinin strateji müdafiə qabiliyyəti həmin tələbi çağırış kimi qarşıya qoyur. Bütün gedişatların məntiqi və xarakteri bir nəticəyə hesablanıb. Rusiya sülhməramlılarının çıxarılması üçün şərait yaratmaq və Xankəndidə, Ağdərədə, Xocalıda tamhüquqlu suverenliyi bərpa etmək”.

**İsmayıl**

# Paşinyanın qorxulu yuxuları

## Putin əlinə düşən imkandan yararlanmağa çalışır



## Rusiya prezidenti milyarder iş adamı Vardanyanı baş nazirə alternativ kimi meydana itələyir

**Şərq İqtisadiyyat Forumu Rusiya və digər region ölkələri üçün əhəmiyyət kəsb edir. Regionun iqtisadi baxımından belə bir Forum əlavə dividendlər qazandıra bilər. Lakin Ermənistan region üçün elə də ciddi bir iqtisadiyyata malik oyunçu deyil.**

Əksinə, bu ölkənin iqtisadiyyatı xarici ianələrə, iqtisadi yardımlara möhtac vəziyyətdədir. Paşinyanın foruma dəvət edilməsi sırf Cənubi Qafqazdakı siyasi vəziyyətlə bağlıdır. Rusiya Prezidenti V.Putinin Cənubi Qafqazda baş verən proseslərdən narahat olduğu məlumdur. Xüsusilə Brüssel formatı çərçivəsində ardıcıl görüşlərin keçirilməsi, hər görüşün Ermənistanla Azərbaycan arasında problemlərin həllinə dair ciddi qərarlar qəbul edilməsi Rusiyanı ciddi narahat etməkdədir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Rusiya Ermənistanla Azərbaycan arasında münaqişənin bitməsini, yekun sülh müqaviləsinin imzalanmasını istəmir. Analitikə görə, bu, Kremlin regiona təsir imkanlarını azaldacağı kimi Ermənistanın da Rusiya asılılığından xilas olub Qərbə yönəlməsi deməkdir:** "Bu mənada Putinin hazırda ikili oynadığını demək olar. Özü də bu ikili oyun təkcə Azərbaycana qarşı deyil, həmçinin Ermənistana qarşıdır. Putin açıqlamalarında dəfələrlə Azərbaycanla strateji tərəfdaşlıqdan məmnun olduğunu qeyd edib. Lakin digər tərəfdən Ermənistanın baş naziri ilə Qarabağ ətrafında məsələləri müzakirə edir.

Bu məsələ Azərbaycanın daxili məsələsidir və Ermənistana heç bir aidiyyəti yoxdur. Digər tərəfdən Azərbaycanın daxili məsələsinin Ermənistanla müzakirəsi heç bir halda strateji tərəfdaşlığa uyğun deyil. Bənzər senarini Putin Ermənistana tətbiq edir. Məsələn, Putin Paşinyanla tez-tez bir araya gəlir. Ermənistanı yaxından-uzaqdan əlaqədar etməyən regional iqtisadi-siyasi foruma, tədbirlərə dəvət edir. Bununla Kremlin Ermənistanın yanında olduğu mesajı verilir. Lakin digər tərəfdən Ermənistan daxilində Qarabağ klanını dəstəkləyir. Hətta erməni əsilli rusiyalı iş adamı Ruben Vardanyan kimi Paşinyana alternativ olacaq yeni simalar yaradır".

**Ekspert vurğulayıb ki, Paşinyan forumda çıxışı zamanı Azərbaycanla sərhədlərin müəyyənləşməsinə, kommunikasiya xətlərinin açılmasına və Türkiyə ilə dialoqa müsbət yanaşdığını bildirib:** "Prinsip etibarilə, Paşinyanın qeyd etdiyi bu məsələlər heç də yeni deyil. Paşinyan qeyd edib ki, Ermənistan Azərbaycanla sərhədlərin açılmasında maraqlıdır və bu prosesin Rusiyanın dəstəyi ilə başa çatdırılmasını gözləyir. Lakin o, həm də Putinlə iki ölkə arasında ən həssas məsələlərdən birinin Qarabağ olduğuna diqqət çəkib. Putin də öz növbəsində Qarabağın təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Ermənistan Azərbaycanla sərhədlərin açılmasında maraqlı olduğunu desə də, Qarabağ ətrafında Rusiya ilə müzakirə etməsi onun və ölkənin Azərbaycanın ərazi bütövlüyünü tanımadığını göstərir. Bu şərtlər daxilində sərhədlərin açılmasından söhbət belə gedə bilməz".

**İsmayıl Qocayev**



# Ərdoğan ABŞ-a səfərə hazırlaşır

## Baydenlə müzakirələrə ciddi ehtiyac yaranıb

**"Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın ABŞ-a edəcəyi səfər daha çox BMT sammiti çərçivəsində olduğuna görə bir yox, bir neçə görüş keçiriləcək".**

**Bu barədə "Şərq"ə siyasi şərhçi Turab Rzayev bildirib. Onun sözlərinə görə, adətən bu cür tədbirlərdə, NATO-nun, BMT-nin təşkil etdiyi sammitlərdə bütün dövlət liderləri bir arada toplandığı üçün ardıcıl görüşlər təşkil edilir:** "ABŞ səfərində də Ərdoğanın ən azı on ölkə rəhbəri ilə qısa və ya uzunmüddətli görüşləri keçiriləcək. Xarici siyasət məsələləri üzrə müşavir İbrahim Kalın, Xarici işlər naziri Mövlud Çavuşoğlu Ərdoğanın ABŞ-ın prezidenti Co Baydenlə görüşünü təşkil etməyə çalışacaqlar. Daha əvvəllər buna NATO çərçivəsində nail oldular. Lakin uzun müddətdir, hər iki lider bir yerə toplana bilmirdi.

ABŞ və Türkiyə arasında son illər fikir ayrılıqları var. Amma bir çox məsələlərdə, həm NATO üzvü kimi Türkiyənin ABŞ-la həm Yaxın Şərqdə, Qara dəniz hövzəsində, Ukraynada və Balkanlardakı hərbi məsələlərlə bağlı müzakirələrə ehtiyac yaranıb.

Ənənəvi olaraq, Türkiyənin ABŞ-da ən yaxın münasibətləri olan qurumlar olduğunu qeyd edən T.Rzayev deyib: "Konqresdə adətən yunanpərəst, ermənipərəst, yəhudi lobbisinin təsirləri açıq görsənir və bu qüvvələr antitürkiyə mövqeyi ortaya qoyur.

Ötən dəfə də Bayden administrasiyası ilə müəyyən irəliləyiş əldə olundu. Lakin Konqres əlavə şərtlər qoymaqla buna maneçilik törətdi".

*Qeyd edək ki, səfər sentyabrın 17-dən 22-dək olan müddətdə planlaşdırılıb.*

**Sücayət Mehti**

# İqtisadi Şuranın növbəti iclası keçirilib

## Mikayıl Cabbarovun və maliyyə naziri Samir Şərifovun məruzələri dinlənilib

**İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn tapşırıqlar, 2023-cü il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin layihələri, büdcə qaydasının hədəfləri və əməliyyat hədəfi, ortamüddətli dövr üçün dəqiqləşmiş makroiqtisadi proqnoz göstəriciləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun və maliyyə naziri Samir Şərifovun məruzələri dinlənilib. 2023-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# "Ermənistan artıq başa düşüb ki..."

## Fazil Mustafa: "Yekun sülhün imzalanması gözlənilir"



**Brüsseldə baş tutan üçtərəfli görüşdən sonra Nikol Paşinyan İrəvanda görüş keçirib. Bu barədə "Past" qəzeti məlumat yayıb.**

Məlumatda Paşinyanın sülh sazişinin mətn hissəsi üzərində işi sürətləndirməyi tapşırdığı qeyd olunub. Sazişin ilkin variantı noyabrın ortalarına qədər hazır olmalıdır.

**Millət vəkili Fazil Mustafa "Şərq"ə deyib ki, Paşinyan bundan öncə də ilin sonuna qədər tərəflər arasında yekun sülhün imzalanacağı vədini verib.**

Ermənistan artıq başa düşüb ki, sülhə gəlməsə, Azərbaycanın daha da sərt təpkisi ilə qarşılaşacaq.

Onun hazırda belə bir tapşırıq vermə ehtimalı olduqca böyükdür. Yekun sülhün imzalanması isə artıq tamamilə gözlənilən bir prosesdir".

**Günəş**

# Məktəblərdə 3 mindən çox müəllim yeri vakantdır



**Azərbaycan məktəblərində təxminən 3 mindən çox müəllim yeri vakantdır. Həm də bu il üçün müəllimlərin işə qəbulu üzrə imtahanlarda təqdim olunan vakant yerlərdən bəziləri boş qalıb.**

Bunu Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli "Media və təhsil dialoqu" mövzusunda keçirilən təlim-seminarda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, tutulmayan vakant yerlər dərs saatları daha az olan və ucqar yerdəki məktəblərdədir.

N.İsmayılbəyli əlavə edib ki, bu il həm müddətli, həm də müddətsiz müqavilə ilə işə qəbul edilənlərin sayı təqribi 6 min nəfərdir. "İl ərzində boş qalan yerlərə müddətli müqavilə ilə işə qəbul aparılacaq", - deyə o əlavə edib.

# Co Bayden qərarı bəyənib

## ABŞ Ukraynaya 675 milyon dollarlıq əlavə hərbi yardım ayıracaq



**ABŞ Ukraynaya 675 milyon dollarlıq əlavə hərbi yardım ayıracaq.**

**Ukrinform agentliyi xəbər verir ki, ABŞ müdafiə nazirinin müavini Lloyd Ostinbu məlumatı Amerikanın Almaniyadakı "Ramştayn" hərbi hava bazasında Ukraynanın müdafiəsi məsələlərinə dair Əlaqə qrupunun görüşündə açıqlayıb.**

Onun sözlərinə görə, sentyabrın 7-də ABŞ Prezidenti Co Bayden Ukraynaya yeni yardım paketi barədə qərarı bəyənib.

Ostin qeyd edib ki, digər tərəfdaşlar da Ukraynaya yardım göstərirlər. O, Ukraynaya göstərdiyi dəstəyin həcmi 2,3 milyard funt sterlinqə çatan Böyük Britaniyaya, habelə böyük həcmdə əlavə yardım paketləri ayıqacaqlarını vəd etmiş Almaniya və Danimarkaya, 3 haubitsa batalyonu vermiş Polşaya, Şimali Makedoniya, Slovakiya və digər ölkələrə təşəkkürünü bildirib.

Ostinin sözlərinə görə, ABŞ bir sıra silah növləri, o cümlədən hava hücumundan müdafiə vasitələri, artilleriya, helikopterlər, milyonlarla atıcı silahı verib. Məsələn, ilk M777 haubitsaları aprel ayında verildiyi halda bu günə qədər belə vahidlərin sayı 126-dır. O vaxtdan bəri "Ramştayn" (Ukraynanın müdafiəsi məsələləri üzrə əlaqə qrupunun görüşləri) iştirakçıları Ukraynaya verilmiş haubitsaların sayını 18 dəfədən çox artırıblar, bu ölkəyə 26 yaylım atəşi sistemi verilib.

Nazir müavini deyib: "Bu gün müharibə yeni dönüş məqamındadır. Ukrayna Silahlı Qüvvələri cənubda əks-hücuma başlayıblar və biz onların öz ərazilərini geri almalarına kömək etmək istəyirik".

Pentaqon nümayəndəsi bildirib ki, Ukrayna ABŞ-dan 6,1 milyard dollarlıq yardım alıb.







**Laçın və Kəlbəcər rayonları ərazisindəki dəqiqləşdirilmiş mövqelərdə qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahələrindən son on gün ərzində 72 ədəd 2019-cu ildə Ermənistanda istehsal olunan PMN-E növlü piyada**

# 273 hektar ərazi tam təmizlənib

## Son on gündə Laçın və Kəlbəcərdə 72 ədəd mina aşkarlanıb

**əleyhinə və 2 ədəd tank əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Cari ilin sentyabr ayı ərzində işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən 73 ədəd piyada əleyhinə, 47 ədəd tank əleyhinə mina və 8 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib, 273 hektar ərazi tam təmizlənib.

Ümumilikdə mühəndis-istehkam bölmələri tərəfindən işğaldan azad edilmiş ərazilərdə bu günədək 26455 hektar ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. 7558 ədəd piyada əleyhinə, 2342 ədəd tank əleyhinə mina və 9944 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Azad edilmiş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

# Qərb ölkələrində sosial iğtişaş, enerji böhranı gözlənilir

## Pərviz Heydərov: "Böyük həcmdə rus qazından asılı olan Avropa ölkələri üçün qarşıdan gələn qışın hansı mənfi nəticələr doğuracağını dəqiq proqnozlaşdırmaq qeyri-mümkündür"

**NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, qarşıdan gələn qış Kiyevi dəstəkləyən Qərb ölkələri və Ukrayna üçün çətin keçəcək. Stoltenberq bu barədə Böyük Britaniyanın "Financial Times" qəzetində dərc olunan məqaləsində yazıb. Onun sözlərinə görə, Avropa əhalisi və müəssisələr elektrik enerjisi qiymətlərinin sürətlə artmasından əziyyət çəkməyə davam etdikcə blokun birlik və həmrəyliyi ciddi sınaqdan keçəcək.**




Şimali Atlantika alyansının rəhbəri Qərb ölkələrində "sosial iğtişaşlar" və enerji təchizatında fasilələrin ola biləcəyini də istisna etməyib. Qeyd edək ki, fevralın 24-də Rusiya Ukraynaya qarşı müharibəyə başlayıb. Qərb buna cavab olaraq Moskvaya qarşı sanksiyaları gücləndirib, həmçinin Kiyevə milyardlarla dollar həcmində silah və hərbi texnika verib.

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə deyib ki, Qərb ölkələri üçün enerji daşıyıcıları sahəsində yaranmış böhran çox ciddi mənfi təsirlərə və təzyiqlərə yol açmaqdadır. Ekspertin sözlərinə görə, görünən odur ki, enerji daşıyıcıları sahəsində böhranlı vəziyyət daha da pisləşməyə doğru gedir:** "Pandemiyadan çıxandan sonra enerji bazarında stabil vəziyyət bərpa olunmamış Rusiya-Ukrayna arasında müharibə başladı. Nəticədə Avropa Birliyi ilə Rusiya arasında enerji daşıyıcılarının idxalı və alış-satışı ilə əlaqədar ciddi problemlər meydana çıxdı. Əvvəl Qərb ölkələri Rusiyadan neft məhsullarının alışını məhdudlaşdırdı və müxtəlif sanksiyalar tətbiq etdi. Sonra isə Rusiya cavab olaraq enerji daşıyıcılarını, xüsusən neft və qazı Avropaya rublla satacağını bəyan etdi. Hazırda Rusiya ümumiyyətlə Avropaya verdiyi qazı dayandırmış vəziyyətdədir. Bu o deməkdir ki, böyük həcmdə rus qazından asılı olan Avropa ölkələri üçün qarşıdan gələn qışın hansı mənfi nəticələr doğuracağını dəqiq proqnozlaşdırmaq qeyri-mümkündür. Yəni qarşıdan gələn qış fəsli Avropa ölkələri üçün ən dəhşətli günlər ola bilər".

**P.Heydərov vurğulayıb ki, enerji böhranı Avropa iqtisadiyyatına böyük zərbə vurmaqdadır:** "Bunun nəticəsidir ki, Avropa ölkələrinin iqtisadiyyatları tənəzzül dövrünü yaşayır. Qitənin pul vahidi olan "avro" sürətlə dəyər itirməkdədir. Hazırda 1 avro bir dollardan ucuz satılır. Digər sahələrdə yaşanan problemlərin də kökündə bilavasitə enerji böhranı dayanır. Bu məqam zəncirvari digər sektorlara da mənfi təsirini göstərir. Taxıl böhranının bir ucu da enerji böhranı ilə əlaqədardır. Bunu qısa müddətdə yoluna qoymaq əsla mümkün deyil. Sabah Rusiya-Ukrayna müharibəsi dayansa belə qlobal iqtisadiyyata dəymiş ziyanı aradan qaldırmaq uzun illər tələb edəcək. Vəziyyət kifayət qədər qeyri-müəyyəndir".

**İsmayıl Qocayev**



# Vüqar Qurbanov TƏBİB-in icraçı direktoru təyin edilib

**Sentyabrın 8-də "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin Müşahidə Şurasının iclası keçirilib.**

TƏBİB-dən "Şərq"ə bildirilib ki, iclasda "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.3-cü bəndi rəhbər tutularaq, TƏBİB-in icraçı direktorunun vəzifəyə təyin olunması məsələsinə baxılıb.

Müşahidə Şurasının qərarı ilə 2021-ci ilin 13 sentyabr tarixindən etibarən TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Cavanşir oğlu Qurbanov TƏBİB-in icraçı direktoru təyin edilib.

*Qeyd edək ki, Vüqar Qurbanov Azərbaycan Tibb Universitetinin məzunudur. O, uzun illər həkim-nevropatoloq kimi fəaliyyət göstərib, həmçinin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi iddialar departamentinin rəhbəri vəzifəsində çalışıb.*

# Müharibə alovlanır

## Ukrayna-Rusiya savaşı təhlükəli həddə yaxınlaşır




Kreml digər ölkələrə bağışladığı silah-sursat və hərbi texnikanı geri almağa başlayıb

İsmayıl Qocayev

**“Ukraynadakı müharibə yaxın vaxtda bitənə oxşamır. Rusiya ilə Ukrayna arasında daim balanslı olmağa çalışdıq. Bundan sonra da belə olacaq”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Ərdoğan vurğulayıb ki, Qərbin indiki münasibəti doğru deyil:**

”Qərbin siyasəti təhrik üzərində qurulub. Belə olan halda nəticə əldə etmək mümkün deyil. Müharibənin məğlubu çoxdur. Qalibi isə yoxdur. Kimlərsə Ukraynaya maliyyə yardımı etdiyini deyir. Bəs hanı o vəsait?! Mən Rusiyanın və ya Ukraynanın qalib olduğunu deyə bilmərəm. Biz müharibənin bitməsini istəyirik. Amma savaş yaxın vaxtda başa çatana oxşamır. Qeyd edim ki, Rusiya xəfifə alınası ölkə deyil”. Türkiyə lideri bəyan edib ki, Rusiyanın narahatlığı başadüşüləndir: ”Rusiyadan hələ ki taxıl daşınmır. Ona görə də Rusiya Prezidenti Vladimir Putin iradında haqlıdır. Digər tərəfdən, taxıllar kasıb yox, zəngin ölkələrə daşınır. Kasıb ölkələrə də taxıl göndərilməlidir. Eyni zamanda biz istəyirik ki, Rusiyadan da taxıl daşınsın. Bunu gözləyirik. Səmərqənddə Putinlə bu məsələni müzakirə edəcəyik”.

### ABŞ-ın dövlət katibi Entoni Blinken Ukraynaya səfər edib

ABŞ-ın dövlət katibi Entoni Blinken Ukraynaya səfər edib. Ukrayna Prezidentinin mətbuat katibi Sergey Nikiforov yerli mətbuata açıqlamasında Blinkenin səfər çərçivəsində Kiyevdə ”Oxmadit” xəstəxanasında olduğunu, orada müharibədən əziyyət çəkən uşaqların müalicəsi ilə maraqlandığını qeyd edib. O bildirib ki, Blinken Kiyev vilayətinə də səfər etməyi planlaşdırıb. ABŞ-ın dövlət katibi, həmçinin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşəcək. Görüşdə regiondakı vəziyyəti, ABŞ-ın Ukraynaya yardımı məsələləri müzakirə olunacaq. Blinken Ukrayna Prezidenti Volodimir Zelenski də görüşüb. Görüş zamanı E.Blinken ABŞ-ın Ukraynaya təhlükəsizlik yardımının davam edəcəyini bildirib. O söyləyib ki, Vaşinqton lazım olduğu müddətcə Kiyevi dəstəkləyəcək. Dövlət katibi, həmçinin, V.Zelenskini NATO müttəfiqlərinin Ukraynaya 2,2 milyard dollar uzunmüddətli investisiyalar vermək niyyəti barədə məlumatlandırıb.

### “ABŞ Ukrayna sərhədlərinin güc yolu ilə dəyişdirilməsini heç vaxt tanımayacaq”

”BMT Təhlükəsizlik Şurasının iclasında ABŞ-ın dünya təşkilatındakı daimi nümayəndəsi Linda Tomas-Qrinfild bildirib ki, rəsmi Moskva Ukraynanın işğal etdiyi torpaqları Rusiya Federasiyası ərazisinə qatmaq üçün referendum keçirməyə hazırlaşır: ”Bu referendumlar Rusiyanın Xerson, Zaporojye və Ukraynanın digər bölgələrini ilhaq etmək imkanı əldə etməsi üçün legitimlik və ictimai dəstək görüntüsü vermək üçün nəzərdə tutulub. Təbii ki, biz Rusiyanın Ukraynanın sərhədlərini güc yolu ilə dəyişdirmək cəhdlərini heç vaxt tanımayacağıq”.

### “Rusiyanın bu istiqamətdə tədarükü zəiflədi”

Ukrayna hərbçilərinin Xerson vilayətində Dnepr çayı üzərindəki Rusiya keçidlərinə dəqiq zərbələr endirməsi rusların şərqdəki ehtiyatları gücləndirmək imkanlarının ləngiməsinə səbəb olub. Bu barədə Böyük Britaniyanın Müdafiə Nazirliyi məlumat yayıb. Qeyd olunub ki, Xerson vilayətində Ukrayna briqadaları hücum əməliyyatlarını davam etdirir: ”Çox güman ki, Ukrayna Daryevkada avtomobil körpüsünə ciddi ziyan vurandan sonra rusların yerləşdirdiyi hərbi ponton körpüsünü də dağıdıb”.

### “ABŞ Ukraynadakı münaqişəni uzadacaq”

Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin deyib ki, ABŞ Ukraynadakı münaqişənin uzanması üçün əlindən gələni edəcək: ”Son həftələrdə baş verən hadisələr göstərir ki, ABŞ Ukrayna ordusundakı böyük itkilərə və ya Avropadakı iqtisadi problemlərə baxmayaraq, Ukraynadakı münaqişəni bütün gücü ilə uzatmağa davam edəcək”.

ABŞ-ın Müdafiə naziri Lloyd Ostin ukraynalı həmkarı Oliksiy Reznikovla görüşüb. Görüş Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun iclasından əvvəl baş tutub. Nazirlər Ukraynadakı durumu, həmçinin Rusiyaya qarşı birgə mübarizəni müzakirə ediblər.

### General: “Ukrayna ordusu irəliləyir, saxlaya bilmirik”

Rusiya Silahlı Qüvvələrinin generalı, Dövlət Dumasının deputatı Andrey Qurulyov deyib ki, döyüş xəritəsində elə sahələr var ki, orada çox ağırdır: ”Ciddi döyüşlər gedir. Ukrayna ordusu həmin istiqamətdə böyük bir hücuma başlayıb və etiraf etmək lazımdır ki, onlar irəliləyirlər. Ukrayna ordusu adını deyə bilmədiyim istiqamətdə zərbə qrupunu cəmləşdirib və onlar bir neçə uğura imza atıb. Biz məcbur olduq ki, mövqelərimizi geri çəkək. Rusiya ordusunun bu hücum zamanı səhvləri çox oldu. Bu, konkret planlaşdırılmış bir hücum idi. Hazırda Rusiyanın hərbi rəhbərliyi bir sıra addımlar atır, bunun sayəsində biz hadisələrin gedişini dəyişə bilərik”.

### “1 il ərzində Rusiyanın Ukraynada məğlubiyyəti baş verə bilər”

**Politoloq Samir Hümbətov ”Şərq”ə deyib ki, Rusiyanın Ukraynaya qarşı başlatdığı işğalçı müharibənin 6 ay 15 günü keçməsinə baxmayaraq tərəflər arasında sülhə gəlmək və ortaq dil tapmaqla bağlı hansısa razılığın olması ilə bağlı məlumatlar verilmir. Analitikə görə, üstəlik, tərəflər arasında gərginliklər və itkilər hər keçən gün daha da artmaqdadır:** ”Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının verdiyi son açıqlamada Rusiyanın son sutka itirdiyi 640 hərbiçi də daxil olmaqla verdiyi ümumi canlı qüvvə itkilərinin sayı 51 min 250-ni keçib. Eyni zamanda Rusiya tərəfi 2 min 127 tank, 4 min 594 zirehli döyüş maşını, 241 təyyarə, 212 helikopter və s. itkilər verib. Statistik rəqəmlərə baxdıqda ortaya bir sıra suallar çıxır. Rusiyanın bu qədər çox itki verməsinin səbəbi nədir? Döyüşün idarə edilməməsi, Rusiya kəşfiyyatının zəif fəaliyyəti, generalitet heyətin yekdil olmaması, Qərb və Türkiyə silahlarının Rusiya silahlarından üstün olması və s. məsələlər son nəticədə 6 ay 15 gün içində bu qədər itki verməsi ilə nəticələndirib. Digər tərəfdən nəzərə almalıyıq ki, 52 minə yaxın itki verən ordunun ən az o qədər də yaralısı ola bilər ki, bu da öz növbəsində Rusiyanın Ukraynaya göndərdiyi hərbi personalın təqribən 50-75 faizini təşkil edir. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi və İngiltərənin kəşfiyyat xidmətinin mütəmadi olaraq Rusiya ordusu daxilindən məlumatları Ukrayna tərəfinə ötürməsi də müharibənin gedişinə təsir edən amillərdən hesab edilə bilər. Ukrayna tərəfinin əraziləri tam şəkildə azad edənə qədər müharibəni davam etdirəcəklərini bildirməsi savaşın gedişinə təsir edən psixoloji amillərdən hesab edilir. Rusiya müharibədən öncə digər ölkələrə bağışladığı silah-sursat və hərbi texnikanı geri almağa başlayıb ki, bu da Rusiyanın ciddi itkilər verməsindən xəbər verir. Araşdırma və təhlillər onu göstərir ki, müharibə belə davam edərsə, 1 il ərzində Rusiyanın Ukraynada məğlubiyyəti baş verə bilər”.



# Molla rejimi uzağı görmür, düşünmür

## Zamanla “səhralaşdırma siyasəti” türklərin bölgəsindən kürdlərin, farsların ərazisinə də keçəcək

**Qlobal iqlim problemi bütün dünyaya təsir etməkdədir. Ekologiya məsələsi cənub qonşumuz İran, daha dəqiqi Cənubi Azərbaycan üçün də həssas və əsas mövzulardandır. Ölkənin su mənbələrinin vəziyyəti artıq narahatlıq doğurur. İranın Ətraf Mühit Nazirliyi ölkəyə real təhlükələri - hərarətin artması, yağıntıların və əlçatan su ehtiyatlarının azalmasını etiraf edib.**

Ölkədə su problemi ilə bağlı dəfələrlə iğtişaşlar baş verib. 2021-ci ilin may-iyun aylarında yer alan genişmiqyaslı aksiyalar nəticəsində 10 nümayişçi həyatını itirib, yüzlərlə insan yaralanıb. Sistan və Bəlucistan, Xuzestan kimi əyalətlərdə kəndlilər suvarma və ev heyvanları üçün yetərli su ehtiyatları olmadığından heyvanları kəsmək və heç də yaxşı durumda olmayan şəhərlərə köçmək məcburiyyətində qalıblar. İranın bəzi əyalətlərində, konkret olaraq şimaldakı Parsabad şəhərində buvaxtadək Araz çayının suyu içməli su qismində istifadə olunur. Bundan əlavə sudan təsərrüfat məqsədləri ilə geniş istifadə edilir. İran hökuməti su ehtiyatları çatışmazlığı probleminin sosial təlatümlər səbəbinə çevrilməməsi üçün səylər göstərir. Lakin təbii iqlim dəyişiklikləri ilə yanaşı, qonşu Ermənistan tərəfindən çirkləndirmə amili də İranın ekologiyasına yetərincə zərbə vurur. Ermənistan İran üçün Araz çayı kimi vacib olan su mənbəyini çirkləndirməyə davam etməklə vəziyyəti daha da mürəkkəbləşdirir. İranın Energetika naziri Reza Ardakaninanın dediklərinə görə, İran artıq neçə ildir, həm Qafqazda, həm də İranda ən vacib çaylardan olan Arazın Ermənistan tərəfindən çirkləndirilməsi prosesinin dayandırılmasına çalışır. Lakin bu səylər nəticə vermir. Araz çayı Ermənistan tərəfindən sistematik olaraq çirkləndirilir. Araz Azad iqtisadi zonasının rəhbəri Mohsen Narimar 2021-ci ildə bəyan etmişdi ki, İran və Ermənistan Araz çayının çirkləndirilməsinin monitorinqi üzrə işçi qrupunun fəaliyyətini bərpa edəcəklər. Lakin ölkələr birgə komissiyalar yaratsa da, regionun ən önəmli çayı İrəvanın acgözlüyü üzündən çirkləndirilməkdə davam edir. Rəsmi Bakı da dəfələrlə regionun ekoloji durumunu kritik həddə yaxınlaşdıran Ermənistanın məsuliyyətsiz mövqeyindən narazılığını ifadə edib.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə bildirib ki, İranın havanın çirklənməsi və su problemləri son 30-40 ildə daha çox gündəmə gətirilir, təbliğ olunur. Çünki ötən əsrin 60-cı illərində dünyanın orta temperaturu təxminən 14, 2 dərəcə idisə, indi 15 dərəcədir:** ”Çox ciddi problemdir. Şimal buzlu okeanda buz dağlarının əriməsi tədricən çayların qurumasına və ciddi su probleminə yol açıb. Bu artıq beynəlxalq fəlakətə çevrilməkdədir. Su bütün canlılar üçün həqiqətən həyat mənbəyidir. Əsas mənbəyin quruması insanlar da daxil olmaqla bütün canlılar üçün real problem yaradır. Bütün dünyada olduğu kimi Azərbaycanda və qonşu ölkələrdə də su problemləri müşahidə olunur. Regionun əsas su mənbəyi Araz və Kür çaylarıdır. Kür çayı qonşu Gürcüstan ərazisində çirkləndirilsə də, Mingəçevirdəki su anbarı çay suyunu təhlükəli çöküntülərdən, zərərli maddələrdən təmizləyir. Yəni Kür çayı kimyəvi emaldan sonra içməyə yararlı hala gətirilir. Amma Araz çayına axıdılan mis-molibden yataqlarının tullantıları, kükürdün su ilə birləşməsi ciddi təhlükə mənbəyinə çevrilir. Aran zonalarında xərçəng xəstəliklərinin yayılması da bununla bağlıdır”.

**C.Nuriyev vurğulayıb ki, Araz çayı əsas su mənbəyi olduğuna görə çayın təmizlənməsi üçün müəyyən addımlar atır:** ”Ancaq problem ondadır ki, Ermənistan durmadan çayı çirkləndirir, özü də insan həyatı üçün zərərli, kimyəvi maddələrlə çirkləndirir. Tehran hökuməti isə çayı qəsdən çirkləndirən Ermənistanla qardaşlıq edir, onlara hər cür yardım göstərir. Ən əsas məsələ isə odur ki, İran rejimi özü Cənubi Azərbaycandakı quraqlıqdan, Urmiya gölünün qurumasından Azərbaycana qarşı terror kimi istifadə edir. Qəsdən həmin bölgəyə gələn çayların qarşısını kəsərək, su hövzələrinin qurumasına nail olurlar. Məqsəd orada yaşayan Azərbaycan türklərini bölgədən didərgin salmaqdır. Bu, çox məkirli və təhlükəli siyasətdir. Çünki sadəcə müəyyən bir əraziyə deyil, bütövlükdə İrana və regiona mənfi təsir göstərəcək. Zamanla ”səhralaşdırma siyasəti” türklərin bölgəsindən kürdlərin, farsların ərazisinə də keçəcək. Molla rejimi uzağı görməli və düşünməlidir”.

**İsmayıl Qocayev**



# Paşinyan Rusiyadan imdad diləyir

## Baş nazir diqqəti yeni toqquşmaların ola biləcəyinə yönəldir

**Ermənistanın təhlükəsizlik üzrə əsas tərəfdaşı olan Rusiyanın əsas diqqətini Ukrayna ətrafındakı vəziyyətə yönəltməsi regionda sabitliyin pozulmasına gətirib çıxara bilər. Bu fikirləri ötən gün Rusiyada səfərdə olmuş Ermənistan Baş naziri Nikol Paşinyan söyləyib. Baş nazir bildirib ki, region çətin günlərini yaşayır:**

”Burada uzun müddətdir mövcud olan çətinliklər ortaya çıxır və ya kəskinləşir. Bunlar, ilk növbədə, təhlükəsizliklə bağlı problemlərdir. Bu, bütün dünya ictimaiyyətinin, xüsusən də Ermənistanın strateji tərəfdaşı olan Rusiyanın diqqətinin Ukrayna ətrafındakı vəziyyətə yönəldiyi indiki vəziyyətlə əlaqədardır. Bu, regionumuzda sabitliyin pozulması ilə bağlı spesifik qorxulara səbəb olur”. Paşinyan 44 günlük müharibəni ”Azərbaycanın dünyanın diqqətinin pandemiyaya yönəlməsindən istifadəsi” kimi qələmə verib. Bölgədəki hazırkı vəziyyəti ”2020-ci ildəki vəziyyətlə” eyniləşdirib.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, Paşinyan bununla diqqəti yeni toqquşmaların ola biləcəyinə yönəldir və ilk baxışdan belə görünür ki, Rusiyanı ”Azərbaycanın qarşısını almağa” çağırır. Analitikə görə, mövcud danışıqlar fonunda yeni eskalasiya razılaşmaların uzanması, masadakı gündəliyin müəyyən qədər də olsa arxa plana keçməsi üçün İrəvana daha çox sərf edir:** ”Bu baxımdan, erməni baş nazirin ”eskalasiya xəbərdarlığı” daha çox alibi qazanmaq məqsədi kimi görünür. Ermənistan sərhəd boyunca təxribatları artan xətt üzrə inkişaf etdirə və mümkün eskalasiyada ”Azərbaycan diqqətin Ukraynaya yönəlməsindən istifadə edir” gündəmini yarada bilər. Paşinyanın kommunikasiya xətlərinin açılması məsələsində ”ölkələrin suverenliyi” prinsipini təkrarlaması, Zəngəzur dəhlizinin ”yol məntiqi” ilə icrası mövqeyini yenidən dilə gətirməsi bu kontekstdə diqqət çəkir. İrəvan anlayır ki, razılaşmaların icrasının uzanması, xüsusilə rusların marağında olan kommunikasiyanın açılmaması məsələlərin ”hərbi yolla həllini” aktuallaşdıracaq. Lakin Bakının prosesi yetişdirmədən mümkün hərbi varianta getməyəcəyi, ”qazana bilməyəcəyi döyüşə girməyəcəyi” bəllidir. İndi masada danışıqların getdiyi vaxt eskalasiyanın baş verməsi isə Ermənistana sərf edə bilər”.

**İsmayıl**

# "Qarşıdakı qurultayımız növbəli və planlıdır"

## Yadigar Məmmədli: “Dünyanın heç bir yerində mətbuat kənardan idarə olunmur”

**Sentyabrın 24-də Azərbaycan jurnalistlərinin növbəti qurultayı keçiriləcək. Qurultayda Mətbuat Şurasının İdarə Heyətinin yenilənəcəyi bildirilib. Şura sədri postuna da yeni simanın gələcəyi deyilir. Nizamnaməyə görə, sədr qurultayda İdarə Heyətinin üzvləri arasından seçiləcək.**

2003-cü ilin martından Mətbuat Şurasına sədrlik edən Əflatın Amaşovun qurultayda İdarə Heyəti üzvlüyünə və sədrliyə yenidən namizədliyini irəli sürüb-sürməyəcəyi hələ dəqiq deyil. Qurultay yaxınlaşdıqca İdarə Heyəti üzvlüyünə namizəd olmaq istəyənlər də meydana çıxır.



**Qurultayla bağlı ”Şərq”ə danışan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədli deyib ki, Mətbuat Şurasını jurnalistlər özləri yaradıblar. Onun sözlərinə görə, MŞ jurnalistlərin birinci qurultayında təsis olunub və seçkilər keçirilib:** ”Yəni bu prosesi idarə edənlər elə media nümayəndələrinin özləridir. Mətbuat Şurasının sonuncu qurultayı 2018-ci ildə keçirilib. Dörd ildən bir keçirildiyi üçün bu il qurultay vaxtıdır. Düzdür, qurultay yaz aylarında planlaşdırılırdı, amma bu və ya digər səbəblərdən ilin sonuna qaldı. Buna baxmayaraq, qarşıdakı qurultayımız növbəli və planlıdır. Burada başqa məqamlar axtarmaq yersizdir. Qurultayla bağlı mətbuatda çalışan həmkarlarımızın müxtəlif fikirləri, mülahizələri var. Onları oxuyuruq və hörmətlə yanaşırıq. Mətbuat Şurasından gözləntilər çoxdur. Bildirilir ki, qurumun bir çox məsələyə reaksiya verə bilməsi üçün müəyyən islahatlar aparılmalı, funksional və səlahiyyətli olması üçün addımlar atılmalıdır. Bu fikirlər normaldır. Mətbuat Şurasında gənc nəsil jurnalistlərin iştirakının təklif olunması da yaxşı haldır. Bu məsələ bizim üçün də prioritet olub. Çalışmaq lazımdır ki, media strukturlarında həm gənclər, həm də xanım jurnalistlər təmsil olunsunlar. Artıq Mətbuat Şurasının İdarə Heyətinin üzvlüyünə və seçkili orqanlara namizəd verilməsi prosesinə başlanılıb. MŞ-nin saytında müvafiq anket sorğuları təqdim olunub. İdarə Heyəti belə qərara gəlib ki, qurultayın Təşkilat Komitəsi məhz İdarə Heyətinin üzvlərindən ibarət olsun. Biz hamımız Təşkilat Komitəsinin üzvüyük və bu məsələdə məsuluq. Şəxsən öz adımdan deyirəm ki, prioritetlərin gözlənilməsinə çalışacam”.

**Y.Məmmədli vurğulayıb ki, bəzən Mətbuat Şurası ilə bağlı elə gözləntilər səsləndirilir ki, həmin məsələlər Şuranın səlahiyyətlərinə aid olmur:** ”Mətbuat Şurası mediadan kənar və administrativ müdaxilə olmadan özünü idarəetmə mexanizmidir. Eyni zamanda mətbuat-dövlət və mətbuat-cəmiyyət münasibətlərinin tənzimlənməsidir. Dünyanın heç bir yerində mətbuat kənardan idarə olunmur. 2000-ci illərin əvvəllərində Mətbuat və İnformasiya Nazirliyi ləğv olundu və Mətbuat Şurası yaradıldı. Mətbuatın inkişafı məsələsi, kadr problemləri birbaşa MŞ-nin funksiyasına aid deyil. Bu işlər jurnalist təşkilatlarına həvalə olunur ki, müxtəlif layihələrlə həyata keçirilsin. Ancaq donor çatışmazlığına görə bizim jurnalist təşkilatları bu işlərlə məşğul ola bilmir. Bizim əsas davamız jurnalistikanın prinsipləri, etik məsələlərdir. Mətbuat Şurası öz çərçivəsində bu məsələlərlə məşğul olmalıdır. Əgər Azərbaycanda jurnalistikanın inkişafını istəyiriksə, o zaman Mətbuat Şurasında həm təcrübəli jurnalistlər, beynəlxalq təşkilatlarla əlaqəsi olan mətbuat nümayəndələri, həm də gənc media təmsilçiləri olmalıdır. Belə olarsa, həm jurnalistlər, həm cəmiyyət, həm də dövlət qazanclı çıxar. Hamımızın istəyi odur ki, jurnalistika nüfuzlu olsun, informasiyalar əlçatan olsun. Eyni zamanda jurnalistlərin sosial şəraitləri də yaxşılaşsın, əməkhaqları artsın”.

**İsmayıl Qocayev**

# Min adda yeni hərbi məhsullar istehsal etmişik

“Azərbaycan Müdafiə Sənayesi Nazirliyi və Türkiyənin “Aselsan” şirkətinin birgə layihəsi əsasında 250 kq çəkisi olan bomba da hazırlanacaq”



## Üzeyir Cəfərli: “50-dən artıq şirkət Azərbaycanla əməkdaşlıqda maraqlıdır”

**Türkiyənin ən böyük silah şirkəti - ”Sarsılmaz” Azərbaycanla ortaq işlər həyata keçirəcək. Bakıda keçirilən 4-cü ”ADEX” sərgisində iştirak edən Türkiyənin ”Sarsılmaz” şirkətinin satış müdiri Hakan Özadalı deyib ki, yaxın zamanda türk məhsulları ilə Azərbaycanda olacaqlar. O bildirib ki, ”ADEX” sərgisində əsasən tapança və tüfəngləri ziyarətçilərə təqdim edirlər:**

”Bu məhsulları nümayiş etdirməkdən qürur duyuruq. Şirkət olaraq Türkiyə Silahlı Qüvvələrinin ən böyük təchizatçısı kimi burada təmsil olunuruq. Azərbaycanda olmaqdan çox məmnunuq”. Şirkət rəsmisi qeyd edib ki, istehsal etdikləri məhsulları Rusiya, İsrail, Amerika silahları ilə demək olar eynidir: ”Hətta deyərdim daha yaxşıdır. Keyfiyyəti, dayanıqlığı və qiymət baxımından üstünlüklərimiz var. Bazarda gücümüz çoxdur. Digər ölkələrə ixracımız da yetərincədir. ”Sarsılmaz”ın 142 yaşı var. Yəni çox köklü firmayıq və dünya bazarında öz sözümüzü demişik”.

”Havelsan Azərbaycan”ın rəhbəri Erhan Abdullah Kanat isə bildirib ki, Azərbaycan Ordusu Türkiyə şirkətinin hərbi proqram təminatından istifadə edəcək. O bəyan edib ki, bu istiqamətdə artıq işlərə başlanılıb və qısa müddətdə tamamlanacağı gözlənilir: ”Azərbaycanın fərqli komandanlıqları ilə də proqram təminatı barədə müzakirələr davam edir. Xüsusən Azərbaycanın dənizdə müdafiə qabiliyyətinin artırılması istiqamətində işlər aparılır”. Şirkət rəhbəri qeyd edib ki, Azərbaycanda 2006-cı ildən fəaliyyət göstərirlər. Lakin İkinci Qarabağ müharibəsindən sonra işlər artıb və il yarım əvvəl ”Havelsan”ın Azərbaycan ofisi açılıb. Azərbaycan Müdafiə Sənayesi Nazirliyi və Türkiyənin ”Aselsan” şirkətinin birgə layihəsi əsasında 250 kq çəkisi olan bomba da hazırlanacaq. 250 kq qəlpəli-fuqaslı ”Avia Bomba” daha dəqiq nişan almaya malikdir. O, hərbi texnikanı, qurğuları, hərbi sənaye və energetika obyektlərini, nəqliyyat vasitələrini, aerodromdakı təyyarələri, anbarları, körpüləri, canlı qüvvəni və düşmənin digər hədəflərini məhv etmək üçün nəzərdə tutulub.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərli ”Şərq”ə bildirib ki, ”ADEX” sərgisi yenə çoxsaylı eksponatları ilə diqqəti cəlb etdi və yaddaşlarda qaldı. Ekspert vurğulayıb ki, Azərbaycan bir çox şirkətlərlə müqavilələr imzalayıb və bundan sonra da yeni anlaşmalar olacaq:** ”Sərgidə Azərbaycan Müdafiə Sənayesinin də yeni silahları nümayiş olundu. Yeni pulemyotlar, Türkiyə ilə birgə istehsal olunan aviasiya bombası və digər silahlar təqdim edildi. Prinsip etibarı ilə Azərbaycanın Türkiyə ilə hərbi sənaye sahəsindəki əməkdaşlığının dərin kökləri var. Hələ Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaranmazdan öncə bizim mütəxəssislərimiz Türkiyədə çalışırdılar. Ayrıca nazirlik yaradılandan sonra Müdafiə Nazirliyinin sənaye şöbəsi təkmilləşdirildi və böyüdüldü. Türkiyədə hərbi sənaye sahəsində illərlə çalışmış və təcrübə toplamış mütəxəssislərimiz də ölkəyə qayıtdılar. Əvvəlki sərgilərdə xarici nümayəndələr Azərbaycan mütəxəssislərinin işini görərək ölkəmizə xüsusi maraq göstərdilər. Ondan sonra müqavilələr bağlandı. ”Aselsan”, ”Roketsan”, ”Havelsan” və digər şirkətlər Azərbaycanla sıx əməkdaşlıq edirlər. Hərbi avadanlıqların, silahların ayrı-ayrı komponentləri Azərbaycan şirkətlərində hazırlanır. Qazancımız odur ki, hərbi avadanlıqların, silahların təminatında nə vaxtsa problem yaşamayacağıq. Rusiyanın Ukraynada apardığı müharibədə ona görə böyük çətinlikləri var ki, ruslar öz müdafiə sənayesini daha çox xarici ölkələrdən asılı vəziyyətdə saxlamışdı. Bu gün həmin ölkələr Rusiyaya sanksiya tətbiq etdiyi üçün şimal qonşumuz ciddi problemlər yaşamaqdadır”.

**Ü.Cəfərov qeyd edib ki, 4-cü ”ADEX” sərgisindən sonra yeni müqavilələr, ortaq çalışmalar olacaq:** ”Qardaş Türkiyə və Pakistanla yanaşı, İsrail, Bolqarıstan və Rumıniya ilə də müqavilələrin sayı artırılacaq. Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1000 adda yeni hərbi məhsullar istehsal edilib. Rabitə avadanlığı, hərbi hava və dəniz qüvvələrinin istifadə etdiyi məhsullar istehsal olunur. 50-dən artıq şirkət Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Hətta Azərbaycan ABŞ-a hərbi təyinatlı məhsul ixrac edir. Sözsüz ki, müqavilə bağladığımız ölkələrin siyahısında qardaş Türkiyə öncül yeri tutur. Bütün sahələrdə olduğu kimi iki qardaş ölkənin əməkdaşlığı hərbi-sənaye sahəsində də ən üst səviyyəyə qaldırılacaq”.

**İsmayıl Qocayev**



# Komandoslar əmr gözləyir

“Qisas” əməliyyatının ikinci mərhələsi başlaya bilər”

**Günəş Mərd**

**Dövlət sərhədi istiqamətində mövqelərimiz yenə atəşə tutulub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda qeyd olunub:**

”Sentyabrın 7-si saat 21:00-dan sentyabrın 8-i saat 04:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Subatan və Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun İstisu və Tovuz rayonunun Ağdam yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub”.

**Vəziyyəti dəyərləndirən hərbi ekspert İbrahim Rüstəmli ”Şərq”ə bildirib ki, baş verənlər çoxsaylı erməni təxribatlarının bir hissəsidir. Azərbaycanın ermənilərə, revanşistlərə və terrorçulara təzyiqi artırdıqca onlar da buna qarşılıq verir:** ”Ancaq rəsmi Bakı hər dəfə sübut edir ki, o, öz iddialarında haqlıdır. Biz bu haqların qorunması üçün çalışırıq. Hazırda Ermənistan qeyri-müəyyən bir vəziyyətdədir. İndi Ermənistan rəsmiləri və erməni xalqı konkret olaraq nə istədiyini bilmir.

Erməni təxribatlarında adətən Azərbaycan ərazi bütövlüyü məsələsində dəstək olmayan dövlətlərin nəfəsi hiss olunur. Xüsusilə, Fransanın və ordakı erməni lobbiçilərinin. İndi dünya siyasətində də vəziyyət qarışıb. Hegemon dövlətlər arasında gərginlik yaşanır.

Düşünürəm ki, Azərbaycan torpaqlarında baş verən hadisələr də həmin hegemon dövlətlərin bizim ərazimizdə keçirdiyi mini proqramdır.

Rəsmi Bakı ərazi bütövlüyü məsələsində olduqca iddialı, təmkinlidir. Əgər lazım gələrsə, dövlətimiz ”Qisas” əməliyyatının ikinci mərhələsinə də başlaya bilər.

Bunun üçün kifayət qədər gücümüz var. Bizim üçün onları sındırmaq, məhv etmək çox asandır. Ancaq sülhü dəstəkləməyimiz buna mane olur. Döyüşkən ordumuz, komandolarımız, xüsusi təyinatlılarımız göstəriş olduğu halda ölkəmizin milli maraqlarını təmin edəcəklər.

# "Partiyaların İTV-də çıxışına bərabər şərait yaradılmalıdır"

Əhməd Oruc: “Yeni qanun layihəsi haqqında söylənilən fikirlər boş söhbətdir”



**“Siyasi partiyalar haqqında yeni qanun layihəsi yoxdur. Bu, indiki qanuna əlavələr və dəyişiklik edilməsi üçün ayrı-ayrı siyasi partiyaların təşəbbüsdür”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinə münasibət bildirən Azadlıq Partiyasının sədri Əhməd Oruc deyib. Onun sözlərinə görə, qanun layihəsi, sadəcə, siyasi partiyaların təkliflərindən ibarətdir:* ”Hazırkı ”Siyasi partiyalar haqqında” qanun siyasi qüvvələrə müəyyən əngəl törətmir. Partiyaların İctimai Televiziya və digər kanallara çıxışına şərait yaradılmalıdır. Mətbuata bərabər çıxış imkanları olmalıdır. Siyasi təşkilatların maddi təminatı məsələsi həllini tapmalıdır. Sadaladığım bu problemlərin heç biri həll edilmir. Yeni qanun layihəsi haqqında söylənilən fikirlər boş söhbətdir”.

Qeyd edək ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi müzakirə mövzusuna çevrilib. Yeni layihədəki bəzi müddəalar narazılıqla qarşılanıb. Layihənin ilkin versiyasında qeyd olunub ki, üzvlərinin sayını 90 gün ərzində 10 min nəfərə çatdıra bilməyən dövlət qeydiyyatına alınmış partiyaların ləğvi barədə Apelyasiya Məhkəməsində iddia qaldırılacaq.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər siyasi partiyanın üzvü ola bilməyəcəklər. Milli Məclis, prezident və ya bələdiyyə seçkilərində ardıcıl olaraq 2 dəfə iştirak etməyən siyasi partiya ləğv ediləcək.

**Aygün Tahir**

# Məhkəmə hökm çıxardı

Bakıda anasının başını kəsən şəxs psixiatriya xəstəxanasına yerləşdirilib



**Anasını qətlə yetirməkdə ittiham olunan Samir Cəfərovun cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmə ittiham olunan şəxsin psixi problemləri olduğu qənaətinə gələrək, onun məcburi olaraq psixiatriya xəstəxanasına müalicəyə yerləşdirilməsi barəsində hökm qəbul edib.

Qeyd edək ki, hadisə 2021-ci ilin dekabr ayında baş verib.

Dekabrın 23-ü saat 13 radələrində paytaxtın Nəsimi rayonunda kirayədə yaşadığı evdə 1959-cu il təvəllüdlü Bəsti Cəfərovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılan araşdırmalarla zərərçəkmişin oğlu 1989-cu il təvəllüdlü Samir Cəfərovun birgə yaşadıqları evdə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla Bəsti Cəfərovanın boğaz nahiyəsinə xəsarət yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağı Nəsimi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

# 13 yaşlı qızın faciəsi...

O balacanın stresi, gündəlik düşdüyü vəziyyət heç kəsi şübhələndirməyibmi?



**13 yaşında uşaq dünyaya gətirən qızın anası ondan və nəvəsindən imtina edib. Qız isə sığınacağa müraciət edib. Guya, ana 9 ay boyunca uşağının hamilə olmasını bilməyib ki, indi imtina edir!? Amma bu məsələ ayrıca bir müzakirə mövzusudur. Təcavüzə uğrayan övladını qoruyub ona sahib çıxmaq əvəzinə onsuz da həyatı alt-üst olan qızını taleyin ümidinə buraxan ana bu hadisəni ört-basdır etmək istəyib və doğum evdə gerçəkləşib. Lakin doğumdan sonra 13 yaşlı qızda qanaxma olduğu üçün məcbur qalıb Təcili Tibbi Yardıma müraciət ediblər.**

13 yaşlı qızın uşaq dünyaya gətirməsi hər kəs tərəfindən təəccüb və hiddətlə qarşılanıb.

Hadisənin tək günahkarı oymuş kimi bütün cəmiyyət üstünə gedir, körpə canı cinsi zorakılığa məruz qalması azmış kimi ətrafın mənəvi təcavüzü altında əzilir. Halbuki, bu hadisə sözün əsl mənasında fəlakətdir. O, qızın yox, bütün cəmiyyətin fəlakətidir.

İcbari təhsildən yayınmaya görə məktəb, müntəzəm olaraq uşaqların sağlamlıq haqqında qeydiyyatını aparan poliklinika, səhiyyə biganəliyi, valideyn laqeydliyi, qohum-qonşuların susqunluğu niyə gözardı edilir?!

Hadisə olub-bitəndən, bir uşaq, bir körpənin həyatı məhv olandan sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi məsələni nəzarətə götürüb araşdırma aparılacağını bəyan edib.

**Təhsil naziri Emin Əmrullayev də deyib ki, məsələ ilə bağlı istintaq orqanları tərəfindən araşdırma gedir və hər hansı fikir bildirə bilməz:** ”Bu, Elm və Təhsil Nazirliyinin səlahiyyətinə aid olan iş deyil. Bütün bu sadaladıqlarımın gerçək olması reallığı 13 yaşlı bir uşağın ana olması faktından belə daha dəhşətli deyilmi?!

**Sosioloq Lalə Mehralı bildirib ki, cəmiyyətin bu qədər deqradasiyaya uğraması qəbuledilməzdir:** ”Bu xəbərin başlığını gördükdə dəhşətə gəldim. İnsanlar necə vəziyyətə gəlib çıxıblar. Özü körpə olan bir qızın hamilə qalıb uşaq dünyaya gətirməsi, sadəcə, dəhşətdir. Necə ola bilər ki, anası bu qızcığazın 9 ay hamiləlik dövründən xəbərsiz olsun? O balaca qızın stresi, gündəlik düşdüyü vəziyyət heç kəsi şübhələndirməyibmi? Hamiləlik dövrü mütləq ki, insanın gündəlik həyatında özünü göstərir. Anası, ətrafdakı insanlar həqiqətənmi bundan xəbərsiz olub? Bu çox müəmmalıdır. Deməli ki, ana 13 yaşlı qızı ilə heç bir zaman maraqlanmayıb. Bu məsələ ciddi suallar doğurur. Bu məsələdə bütün məsuliyyət ananın üzərinə düşür. Hələ üstəlik qızından imtina edən də odur. Hesab edirəm ki, 13 yaşlı qızın və dünyaya gətirdiyi körpənin o cür ananın himayəsində qalmağı heç doğru deyil. 9 aylıq prosesdə övladından bixəbər və bu cür vəziyyətdə ondan imtina edən qadın lazımi sevgini, qayğını onlara heç bir zaman verə bilməyəcək. O uşağı o evdə hansı aqibət gözləyir, təxmin etmək olar. Ona görə də onların dövlətin himayəsinə verilməsi daha məqsədəuyğundur”.

**”Gənc Vətəndaş” İctimai Birliyinin icraçı direktoru, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova ”Şərq”ə açıqlamasında deyib ki, ölkədə uşaqların müdafiə sisteminin təşkili ilə bağlı lazımi addımlar atılsa, yeniyetmələr cinsi təcavüz və məişət zorakılığına məruz qalmazlar:** ”İctimai Şura sədri olaraq çox istərdim ki, məktəblilərimiz məruz qaldıqları fiziki və ya mənəvi zorakılıq faktları və yaxud da üzləşdikləri təhdidlə bağlı məktəb rəhbərliyi, müəllimlərini, məktəb psixoloqunu məlumatlandırmaq, ondan dəstək istəmək imkanlarına sahib olsunlar. Hər bir şagird dara düşəndə onu dinləyib, başa düşəcək müəllimlərinin olduğuna inansa, onlara güvənsə, problemlər bu dərəcədə dəhşətli xarakter almaz. Bəzən uşaqlar etdikləri səhv hərəkətləri, kiminsə onu narahat etdiyini, təzyiq göstərdiyini valideynlərinə danışa bilmir. Valideynlərinin ona inanmayacağından, əksinə, başına gələn hər şeyə görə özünün günahlandırılacağından qorxur. Belə halda uşaqlar məktəbə ümid yeri kimi baxmalı, müəllimlərinə gözüyumulu güvənməlidir. Amma çox təəssüflər olsun ki, bizim təhsil sistemində bu ənənə formalaşmayıb. Nə müəllimlər, nə psixoloqlar şagirdlərlə fərdi söhbətlər edib, onların maraq dairəsi, qayğıları ilə bağlı söhbətlər aparmır deyə, şagirdlər özlərini pedaqoji heyətə yaxın hiss etmir. Bunları deməkdə məqsədim məlum hadisəyə görə konkret məktəbi və ya təhsil sistemini günahlandırmaq deyil. Bu dediklərim baş verə biləcək hansısa hadisənin qarşısını almağa kömək edəcək bir yanaşmadır.

“Nə qədər ki, Azərbaycanda uşaqların müdafiə sistemi işə düşməyəcək, o vaxta qədər də bu cür hadisələrin sayı artacaq”

İnsanların 13 yaşlı qız ana olana qədər məktəbin bu prosesdən xəbərsiz olmasına irad bildirməsi, ümumilikdə təhsil rəhbərliyini günahlandırması ədalətsiz yanaşmadır. Aydın məsələdir ki, hamiləliyin bəlli olduğu dövrlər yay tətilinə təsadüf edir. Hətta anası belə xəbərsiz olduğunu deyib ki, qarnının böyüməsini çox yeməsi ilə əlaqələndiriblər.

Təbii ki, hadisə təkcə məktəbin məsuliyyətsizliyi deyil deyə təhsil rəhbərliyi çəkilib kənarda durmamalıdır. Bütün dövlət qurumları bu hadisə ətrafında səfərbər olmalı və öz məsuliyyətini dərk etməlidir”.

**G.Səfərovanın sözlərinə görə, bütün icra hakimiyyətlərində yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar var. Bu komissiyanın nümayəndələri, problemli, ailə üzvlərindən birini itirən ailələrlə, həmin ailələrdə böyüyən uşaqlarla işləməlidir:** ”Əsas məsələ odur ki, Azərbaycanda yeniyetmələr və uşaqlar arasında cinsi maarifləndirmə aparılmır. Bu mövzu əsas ”tabu”lardan biridir. Uşaqlara cinsi zorakılığın nə olduğu, özlərini qoruma yolları öyrədilmədiyinə görə, bu qızcığaz cinsi təcavüzə məruz qaldığının fərqində belə olmayıb. Zorakılığı normal bir hadisə kimi qəbul etməyin özü də çox ciddi problemdir”.

Ailələr və müvafiq qurumların uşaqlara etinasız yanaşdığını, nəzarət mexanizminin olmadığını təəssüflə vurğulayan G.Səfərova hesab edir ki, ilk dəfə deyil biz bu cür xoşagəlməz hadisənin şahidi oluruq. Sadəcə, bizdə uşaqlara qarşı o qədər biganəlik var ki, hər dəfə hansısa təcavüz, fiziki zorakılıq baş verdikdən sonra hadisə ilə bağlı ölçü götürülür: ”İctimai Şura olaraq yeni tədris ili başlayanda həmin qızın təhsil aldığı məktəbə gedib öz araşdırmalarımızı yerində aparacağıq ki, məktəbdə ab-hava necədir. Məktəb psixoloqu, məktəblilərin dostu layihəsi varmı!? Düzdür, hadisə ilə bağlı konkret faktlara dayanan bəzi detalları bilirəm, amma istintaqın gedişinə mane olmasın deyə bu məlumatların ictimaiyyətdə yayılmasını doğru hesab etmirəm. Nə qədər ki, Azərbaycanda uşaqların müdafiə sistemi işə düşməyəcək, o vaxta qədər də bu cür hadisələrin sayı artacaq”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması



# Mənfi emosiya aqressiya yaradır

## Ailə münaqişələri işıqlandırılarkən insan hüquqları və etik davranış qaydaları nəzərə alınmalıdır

**KİV və sosial media əməldə cinayət tərkibi olan epizodlardan bəhs edərkən qeyri-insani davranışları işıqlandırmamalı, əks təqdirdə bunun ictimaiyyətin həssas təbəqəsinin şüurunda mənfi izlər buraxdığının fərqinə varmalıdır. Çox vaxt psixoloqlar və ictimaiyyət nümayəndələri kriminal xəbərlərin yayılmasında məhz mətbuatı qınayır, mediada dərc olunan pis xəbərlərin cəmiyyətdəki aqressiyanı artırdığını iddia edirlər.**

Bir çoxlarına görə, bu cür hadisələrin mediada geniş şəkildə işıqlandırılması intihar və zorakılığa meyilli insanları təşviq edir. Demək olar ildə bir neçə dəfə ailə-məişət zorakılıqlarının, amansız qadın və uşaq qətlləri, təcavüz hadisələrinin Kütləvi İnformasiya Vasitələrində (KİV) işıqlandırılması, hətta bəzi media orqanları tərəfindən həddindən artıq tirajlanması ciddi müzakirə mövzusuna çevrilir.

Amma inkaredilməz bir reallıq da var ki, ailədaxili məsələlərin həllinə yönəlmiş proqramlar, ailə münaqişələrindən, məişət zorakılığından bəhs edən xəbərlər, ailə-məişət mövzusunda çəkilən seriallar bütün dünyada yüksək reytinqi ilə seçilir.

Təbii ki, mətbuatın bunu bilərəkdən etdiyini düşünmək doğru olmaz. Ancaq reytinq xatirinə yarışa çıxmış saytlar, televiziyalar çox vaxt bu üsuldan istifadə etməyə məcbur qalırlar. Bunun qarşısı qəti şəkildə alınmalıdır, yoxsa KİV şəxsi və ailə həyatı ilə bağlı hadisələri qabardıb, qeyri-insani xüsusları tam detallı yazmalıdır? Ailədaxili konfliktlər məhz reytinq vermə qabiliyyətinə görə daha çox efirlərə və onlayn mediaya daşınır. Bu, təbiidir. Amma bu tip informasiyalar mütləq jurnalistlərin peşə etikası qaydaları və ölkə qanunvericiliyinin bu mövzuda jurnalistlərə tanıdığı hüquqlar çərçivəsində işıqlandırılmalıdır. Azərbaycan Respublikasının "Media haqqında" qanununun 14-cü maddəsində mediada dərc olunan və yayımlanan informasiya tələblər nəzərdə tutulub. Bu tələblər arasında şəxsi və ailə həyatına aid sirlərin mühafizəsi, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunun müddəalarına əməl olunması kimi vacib məsələlər yer alır. Peşə etikası normaları da onu tələb edir ki, media ictimai əxlaqa, mənəvi dəyərlərə zərər gətirən informasiyanı yaymasın. Bu da medianın peşəkarlıq səviyyəsi ilə birbaşa bağlıdır.

Ekspertlərin fikrincə, ictimai əhəmiyyət kəsb etməyən lokal xarakterli ailə münaqişələrinin durmadan gündəmə gətirilməsi yaxşı hal deyil. Ailə-məişət mövzusunda neqativ hadisələrin, cəmiyyət üçün xarakterik olmayan nümunələrin aşırı dərəcədə tirajlanması yanlış ailə modelinin təbliğinə gətirib çıxarır.

Bəzən azyaşlıların gələcək həyatına neqativ təsir göstərə biləcək mövzularda uşaqlar müzakirələrin mərkəzinə gətirilir, onların siması açıq formada nümayiş etdirilir. Bəzən problemi olan ailələr ekspert qismində çıxış edən şəxslər tərəfindən yanlış mühakimə edilir.

Jurnalistlərin bilavasitə ictimai rəyə və şüurlara təsir imkanları olduğunu vurğulayan psixoloq Nərgiz Hüseynovanın sözlərinə görə, xoşagəlməz olayların mediada detallı təsviri insanların psixikasına təsir edir, hadisələrin təfərrüatı ilə verilməsi xüsusən də uşaqlar və gənclər arasında bu hadisələrə meyillilik yaradır: "Mediada cinayət, intihar hadisələri çox geniş, detallı təsvir olunur. Təbii ki, bunun mənfi təsirləri var. İnsanlara tərbiyəedici deyil, əksinə, neqativ təsir göstərir. Bu cür hadisələri oxuyan aqressiv insanlar oxşar hadisələri törədib, qisas almağa meyilli olurlar. Onların alt şüurunda aqressiya yaranır. Stres halına düşəndə çıxış yolu axtarmaq istəmir, bu neqativ hadisələrdəki gördüyü üsullardan istifadə edirlər. Digər tərəfdən fotoqrafik təsir də var. Adətən bu cür olaylar qan, silah, ölümlə bağlı fotolarla təqdim edilir ki, bu da insanlara neqativ təsirini göstərir".

**Media eksperti Azər Həsrət isə hesab edir ki, media qurumları reytinq xatirinə sensasiya dalınca qaçmaqdansa, insanlarımızın müsbət yöndə tərbiyə olunmasının qayğısına qalsalar, daha yaxşı olar:** "Belə xəbərlər isə istənilən şəxsin cəmiyyətlə bağlı gözləntilərinə çox böyük zərbə vura bilir və buna görə də sensasiya dalınca qaçan həmkarlarımıza cəmiyyətə ötürdükləri mənfi emosiya yükünün bir gün onların da çiyinlərinə çökəcəyini unutmamağı tövsiyə edərdim. Cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai xadim olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar törədibsə, ictimai maraq kəsb etmədikdə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır. Cinayətdə şübhəli bilinən şəxsin tam adı və şəklinin dərci yalnız o hallarda mümkündür ki, bu, cinayətin açılmasına kömək edə bilər və ya həmin adam artıq həbs olunub, yaxud da törədilən cinayətlə onun tutduğu vəzifə arasında əlaqə var. Ümumi şəkildə desək, jurnalist öz vəzifəsini yerinə yetirərkən insan hüquqlarını və etik davranış qaydalarını nəzərə almalıdır".

> "Xoşagəlməz olayların mediada detallı təsviri insanların psixikasına təsir edir, hadisələrin təfərrüatı ilə verilməsi xüsusən də uşaqlar və gənclər arasında bu hadisələrə meyillilik yaradır"

**Ekspertin fikrincə, bu tip hadisələrin reytinq qazanmaq məqsədilə təfərrüatı ilə verilməsi Azərbaycanın müəyyən qanunvericiliyinə və jurnalistin peşə davranış qaydalarına ziddir:** "Baş vermiş hadisəni işıqlandırmaq jurnalistikanın əsas vəzifələrindəndir. Sadəcə olaraq, bəzən jurnalistikada qeyri-peşəkarlığa yol verilir ki, belə hallar cəmiyyətə informasiyanın əldə olunmasından götürüləcək xeyirdən daha çox ziyan vurur. Bütün bunların da çıxış yolu həm Azərbaycanın bir sıra qanunvericiliyində, həm də jurnalistlərin peşə-davranış qaydalarında göstərilib. Xüsusilə uşaqlarla bağlı baş verən hadisələrdə jurnalist tərəfindən bəzən çox qeyri-peşəkar hallara yol verilir. Jurnalistikada birmənalı şəkildə belədir ki, əgər baş vermiş hadisənin zərərçəkəni, yaxud hadisədə bir tərəf yetkinlik yaşına çatmamış uşaqdırsa, onların adları qapalı saxlanılmalı, şərti adlarla verilməlidir. Bununla yanaşı, başqalarına təsir edə biləcək cinayət hadisələri detallı şəkildə göstərilməməlidir. Amma çox təəssüf, KİV-də - istər qəzetlər olsun, istər televiziyalar - baş vermiş hadisədən zərərçəkmiş uşaqların adları, hadisənin detalları çox zaman açıqlanır ki, bu da həmin insanları həm psixoloji basqı altında qoyur, həm də digər uşaqları bu sahəyə yönləndirir. Bu, jurnalistlərin peşə-davranış qaydasına və Azərbaycanın qoşulduğu beynəlxalq qanunlara zidd əməldir və bunların qarşısı alınmalıdır".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Təkliflər nəzərə alınacaq

## Siyasi partiyalar haqqında qanunun hələ ki ilkin müzakirəsi aparılır

**"Azərbaycanda siyasi müstəvidə həyata keçirilən islahatların dərinləşməsi prioritet olmaqla yanaşı, müasir dövrün çağırışlarındandır".**

*Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili Vüqar Bayramov deyib. "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ilkin variantına münasibət bildirən deputat qeyd edib ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasına bu islahatların tərkib hissəsi kimi baxmaq lazımdır:* "Yeni inkişaf hədəfləri kontekstində "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu zəruri idi. Nəzərə almaq lazımdır ki, mövcud "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 1992-ci il 3 iyun tarixində qəbul edilib. Aydındır ki, ötən 30 ildə siyasi münasibətlərə baxış dəyişib və ölkədə formalaşan yeni siyasi düzən hüquqi müstəvidə də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımların atılmasını vacib edirdi. Layihənin hazırlanması prosesində demokratik dəyərlərin gözlənilməsi və şəffaflığın qorunması əsas prinsiplərdən olub. Belə ki, qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclasına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirilib və bu ayın 28-də ilk ictimai dinləmə də təşkil ediləcək".

**Parlament üzvü vurğulayıb ki, məhz bu prinsiplərin gözlənilməsi layihənin hazırlanması prosesində siyasi partiyaların daha fəal iştirakına zəmin yaradıb:** "Artıq 39 siyasi partiya öz təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib ki, bu da prosesdə siyasi inklüziv yüksək olduğundan xəbər verir. Çox vacib məqamlardan biri də layihənin hazırlanması zamanı beynəlxalq təcrübənin öyrənilməsinin nəzərə alınmasıdır. Layihə hazırlanarkən Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi öyrənilib və yaxşı təcrübələr nəzərdən keçirilib. Bu isə qanun layihəsinin beynəlxalq prinsiplərinə uyğun olaraq hazırlanmasının göstəricisidir. Qeyd etmək lazımdır ki, Milli Məclisin saytında yerləşdirilmiş layihə ilkin variantdır. Bu da o deməkdir ki, ictimai dinləmə zamanı verilən təkliflər nəzərdən keçirilməklə qanun layihəsi daha da təkmilləşdiriləcək".

*Qeyd edək ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin ilkin versiyası Milli Məclisin saytında dərc edilib. Sentyabrın 28-dən qanun layihəsinin ictimai müzakirələri başlayacaq. 1992-ci ildə qəbul edilən qanun 22 maddədən ibarətdir. Yeni təklif edilən qanun layihəsi isə 30 maddədən ibarət olmaqla daha əhatəlidir.*

**İsmayıl**

# Yeni hərəkat başlayır

## Əsgərlərimizin açdığı cığırı könüllülərimiz abadlaşdıracaq

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin Qarabağ İqtisadi rayonu üzrə xüsusi nümayəndəliyi və Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı işğaldan azad olunmuş ərazilərdə könüllülük proqramına gənclərin qəbuluna başlayıb.**



Gənclərimizin işğaldan azad olunan ərazilərimizdə bərpa işlərinə qatılması cəmiyyətdə müsbət qarşılanır

Proqramın əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən oradan olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində və eləcə də bölgənin tarixi, mədəniyyəti və xalqımızın irsinin təbliğində iştirakını təşviq etmək və gənclərin azad olunmuş ərazilərə qayıdışına töhfə verməkdir. Proqramın ilkin olaraq Ağdam rayonunun işğaldan azad olunmuş ərazilərində həyata keçirilməsi və tədricən digər rayonları da əhatə etməsi nəzərdə tutulur.

Proqram çərçivəsində könüllülər Ağdam rayonu ərazisində müxtəlif könüllü fəaliyyətlərinə, o cümlədən mütəmadi olaraq Ağdamda keçiriləcək tədbirlərin təşkilində iştirak, Ağdama səfər edən yerli və xarici qonaqlarla iş, bərpa və yenidənqurma işlərinə dəstək, qayıdışa hazırlıq və məskunlaşmaya dəstək və Azərbaycan Respublikası Prezidentinin Qarabağ İqtisadi rayonu üzrə xüsusi nümayəndəliyinə müxtəlif fəaliyyət istiqamətləri üzrə könüllü dəstəyinin göstərilməsinə cəlb olunacaqlar.

Azərbaycan Könüllülər Hərəkatının sədri Yusif Vəliyev bildirib ki, hazırda Ağdam rayonunda könüllülük proqramına start verilir və bu proqram digər rayonları da əhatə edəcək. Proqram çərçivəsində könüllülər Ağdamda keçiriləcək tədbirlərin təşkilinə cəlb olunacaqlar. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əsgərlərinin rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan Qələbə ilə ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Şanlı tariximizin ən parlaq səhifələrindən olan bu Zəfər nəticəsində insanlarımız uzun illər həsrətini çəkdikləri doğma ata-baba yurdlarına qayıtmaq imkanı əldə ediblər.

O qeyd edib ki, Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında böyük Zəfərdə gənclərin həlledici rolunu vurğulayıb və Azərbaycan gəncinin Böyük Qayıdış prosesində iştirakının əhəmiyyətini bildirib. Gənclərin öz doğma torpaqlarının bərpasında oynayacaqları rol çox önəmlidir.

Qarabağ iqtisadi rayonuna daxil olan, işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin köməkçisi Ümid İsazadə isə deyib ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycan gəncliyinin inkişafı üçün mühüm addımlar atılır. Bərpa işlərinin ən ali məqsədi məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və onların rifahının təmin olunmasıdır: "Gənclərin yenidənqurma və bərpa işlərində öz bacarıqlarını göstərmələri üçün şərait yaradacağıq. İnanırıq ki, könüllülük fəaliyyəti çox uğurlu olacaq. Biz onları iqtisadi və sosial fəaliyyətlərə cəlb edəcəyik". Daha sonra Ağdam könüllülərinin formasının dizayn konsepsiyası təqdim edilib. Proqrama qoşulmaq istəyən 18-29 yaş arası, əslən Ağdam rayonundan olan hər bir gənc təhsil səviyyəsindən asılı olmayaraq, "agdam.konullu.az" veb-səhifəsi vasitəsilə qeydiyyatdan keçə bilər. Müraciətin son tarixi sentyabrın 17-sidir.

**Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri Seymur Verdizadə "Şərq"ə açıqlamasında deyib ki, işğaldan azad olunmuş ərazilərdə quruculuq-abadlıq işlərinin aparılmasının vacibdir.** O hesab edir ki, Qarabağ yenidən abadlaşdırılmalıdır ki, əhalinin məskunlaşdırılma prosesi sürətlə həyata keçirilsin. Bu prosesdə dövlət qurumları ilə yanaşı cəmiyyətin bütün təbəqələrinin, xüsusilə də gənclərin iştirakı arzuolunandır: "İşğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətinin təşkili müsbət haldır. Bu prosesdə gənclərin iştirakını dəstəkləyirəm. Valideynləri Qarabağdan köçkün düşmüş gənclərin öz ata-baba yurdunun bərpasında iştirakı sevindirici olduğu qədər də vacibdir. Bu, həmin gənclərə Qarabağı yaxından görmək, tanımaq imkanı verəcək. Qarabağ onlarındır. Yaşın qazandırdığı üstünlük sayəsində onlar uzun illər Qarabağda yaşayıb-yarada biləcəklər. Yaxşı olar ki, gələcəkdə yaşayacaqları yerləri indidən öz əlləri ilə abadlaşdırsınlar. Obrazlı desək, öz evlərini özləri tiksinlər".

S.Verdizadənin sözlərinə görə, Azərbaycanda könüllülük hərəkatının genişləndirilməsinə ehtiyac var. Yeni proqram Ağdamdan başlayacaq, amma əminəm ki, işğaldan azad olunmuş digər rayonlarımızı da əhatə edəcək: "İnanıram ki, əsgərlərimizin açdığı cığırı könüllülərimiz geniş və abad yola çevirəcək. Bir müddət sonra milyonlarla qarabağlı həmin yolla doğma yurd-yuvasına dönəcək".

**Şəymən**

# Mənzili kirayə üsulu ilə almaq ipotekadan daha sərfəlidir

## Təəssüf ki, şərtlər ağırdır, əhalinin böyük bir qismi bu təkliflərdən yararlana bilmir

**Azərbaycanın regionlarda yaşayış sahələrinin satmaq öhdəliyi ilə kirayə verilməsi istisna olunmur. Bunu İpoteka və Kredit Zəmanət Fondunun Baş direktoru İlham Kələşov bildirib. Onun sözlərinə görə, Mənzil Fondu vətəndaşların təklif və istəkləri nəzərə alınmaqla formalaşdırılır.**

Əhalinin tələbi əsasında mütəmadi olaraq kirayə mənzillərin siyahısı genişləndirilir. Potensial tələb olsa, regionlarda yaşayış sahələrinin satmaq öhdəliyi ilə kirayə verilməsi istisna olunmur.

Satmaq öhdəliyi ilə kirayə mənzil mexanizminin xüsusiyyətlərinin hərtərəfli təhlili hazırda ölkədə tətbiq olunan mexanizmin ilk növbədə əhalinin maraqlarına xidmət etdiyini və mexanizm çərçivəsində bağlanılan müqavilələrin davamlı artacağını əminliklə söyləməyə imkan verir.

“Bu proqramın ölkənin digər regionlarına da yayılması məqsədəuyğun olardı”



**İqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, ölkədə kirayə üsulu ilə satılan mənzillərin sayı çox azdır, tələbat isə həddindən artıq çoxdur. Şərtləri ağırdır və ölkə əhalisinin böyük bir qismi bu təkliflərdən istifadə edə bilmir. Hər mənzilə onlarla namizəd olur:** ”Əslində isə mənzili kirayə üsulu ilə almaq ipotekadan sərfəlidir. Çünki belə mənzillər daha sərfəlidir, ona görə insanların marağına səbəb olur. Amma kirayə yolu ilə ev almağın həcmi kiçik olduğundan insanlar bundan istifadə edə bilmir. Hamı Bakı və Abşeron rayonunda mənzillərə çıxış əldə etmək istəyir. Çünki daha çox Bakı şəhərinə fokuslanan bir sistemdir. Bunun da səbəbləri aydındır - iqtisadi fürsətlər tamamilə Bakı və Abşeron yarımadasında cəmlənib.

Hesab edirəm ki, bu proqramın ölkənin digər regionlarına da yayılması məqsədəuyğun olardı. Amma həmin regionlarda iş fürsətləri, qazanc imkanları yaradılmalıdır ki, insanların da marağı artsın. Hesab edirəm ki, Mənzil Fondunun artırılmasına və proqramın ölkənin digər ərazilərdə yayılmasına ehtiyac var. Bu layihə Bakıdan regionlara daşınmalıdır ki, insanlar ev ala bilsinlər və işlə təmin olunsunlar. Bu olmayana qədər Bakıda mənzillərin qiyməti yüksələcək və dövlətin bu tip layihələri uğursuz olacaq”.

**Şəymən**



# Faktdan qaçmaq olmaz

## Vaqif Qarayev: ”Bizim gənclər yaxşı həkim olmaq üçün təhsillərini Türkiyədə və başqa ölkələrdə davam etdirirlər”



**”Bu gün repetitor yanına getməyən uşaq ali məktəbə qəbul ola bilmir. İllər öncə 11-ci sinifdə təhsil alan cəmi bir neçə şagird repetitor yanına gedirdisə, hazırda bu, kütləvi hal alıb”. Bu fikirləri Baku-post.az-a açıqlamasında millət vəkili Fazil Mustafa deyib.**

Deputatın sözlərinə görə, indi hətta ibtidai sinifdən başlayaraq şagirdlər repetitor yanına gedirlər: ”Repetitor yanında hazılaşan şagirdlərin əksəriyyəti ali məktəbə daxil olur. Repetitor yanına getmədən imtahanda uğur qazanan abituriyentlər isə barmaqla sayılacaq qədərdir”.

F.Mustafanın fikrincə, orta məktəbləri tələbə hazırlayan məktəblərə çevirməliyik: ”Ardınca da universitetlərə muxtariyyat verməliyik ki, orda yaxşı müəllimlər dərs desin. Uşaq ali məktəbə daxil olanda təhsildən sönməsin. 600-dən yuxarı bal toplayıb ali məktəbə gedir, bitirəndə heç nəyə nail ola bilmir. Bizim Tibb Universitetini qurtaran gedib Türkiyədə rezidentura keçməsə, həkim ola bilmir. Bu standartlarla həkim yetişdirmək mümkün deyil. Budur bizim əsas problemimiz. Mütəxəssis olmaq üçün xarici ölkədə oxumalısan”.

**Pediatr Vaqif Qarayev isə ”Şərq”ə açıqlamasında deyib ki, bizim gənclər yaxşı həkim olmaq üçün təhsillərini Türkiyədə və başqa ölkələrdə davam etdirirlər.** Bu faktdan qaçmaq olmaz. Amma kiçik istisnalar olsa da, ölkəmizdə təhsil alıb, öz üzərində çalışıb yaxşı həkim olan gənclərimiz də var. Bunu da inkar etmək ədalətli olmaz.

İndi uzman həkimlərin trend olduğunu vurğulayan pediatrın sözlərinə görə, özəl klinikalar da daha çox xaricdə təhsil almış həkimlərə üstünlük verirlər: ”Bir sözlə, ölkəmizdə ümumi vəziyyət hələlik belədir. Burada Tibb Universitetinin günahı varmı?- Onu orda dərs deyən müəllimlərdən soruşmaq lazımdır”.

**Şəymən Bayramova**

# Proqnozlar nikbinlik vəd etmir

## Neft bazarındakı sıçrayışlar istənilən zaman neft gəlirlərini kəskin azalda bilər

**Neftin dünya bazar qiyməti 1 gündə 7 faizdən çox ucuzlaşıb. Bir gün öncə bir bareli 94.0 dollara satılan Brent markalı nefti indi 88.0 dollardan ucuz təklif olunur. Avqustun son iş həftəsinin ilk günü ilə müqayisədə isə neft 17 faizdən çox dəyərsizləşib.**

Ekspertlərin fikrincə, neftin qiymətindəki son azalmalar qlobal iqtisadiyyatdakı resessiya riskinin güclənməsi ilə bağlıdır. **Millət vəkili Vüqar Bayramovun ”Şərq”ə açıqlamasına görə,** Çin iqtisadiyyatındakı gözlənilən artımlara nail olmaqda çətinlik yaradır. Sərt qaydalar səbəbindən hazırda Çində 65 milyon insan sərt karantin rejimində yaşayır.

Bu arada Qərbin İran ilə danışıqları daha da intensivləşib. İrana qarşı sanksiyaların yumşalacağı halda gələn ilin ikinci yarısı neftin bir barelinin qiymətinin 65.0 dollaradək ucuzlaşacağı istisna edilmir. Bütövlükdə, qlobal durğunluq, bazara daha çox neftin çıxarılması kimi proseslər neft bazarı üçün



**Rusiya-Ukrayna müharibəsi kontkestində 2022-ci il üçün qlobal iqtisadi artım proqnozu 4.1 faizdən 2.9 faizədək azaldılıb. Avropa İttifaqı üçün də builki proqnozlara yenidən baxılıb:** ”İlin əvvəlində 4.0 faiz artım proqnozlaşdıran avropalılar bu göstəricini 2.8 faizədək azaldıblar. Bütün bunlar neftə olan tələbin azalacağı ilə bağlı bazar tərəddüdlərini artırıb və bu da qiymətlərdə müşahidə olunmaqdadır. Dünyada ikinci ən böyük neft istehlakçısı olan Çin pandemiya səbəbindən iqtisadi məhdudiyyətləri genişləndirir. Bu isə nikbinlik vəd etmir.

Təbii ki, neftin qiyməti yalnız iqtisadi deyil, eyni zamanda siyasi faktorlardan asılı olduğundan istənilən zaman bazarda sıçrayışlar istisna edilmir. Neft bazarındakı proqnozlaşdırılmayan volatillik bir daha təsdiq edir ki, enerji resursları ilə zəngin ölkələr üçün güclü qeyri-neft sektoru formalaşdırmaq alternativsizdir. Neft bazarındakı sıçrayışlar istənilən zaman neft gəlirlərini kəskin azalda bilər”.

**Şəymən**

# "Vətən sevgisi" - vətəndaşlıq borcu






**Hörmətli oxucu, bu kitab şair, publisist, geoloq, hüquqşünas, tərcüməçi, yazıçı və xeyriyyəçi, ömrünün 50 ildən çoxunu vətəndən kənarda - uzaq Sibirdə yaşayan, bu neçə illərdə Rusiyanın Kemorova şəhərində xalqımızı ləyaqətlə təmsil edən, Azərbaycan Diasporasının yaradılmasında və inkişaf etdirilməsində müstəsna xidmətləri olan Cavanşir Kərimovun sizlərlə 4-cü görüşüdür.**

Kitabda müəllif Cavanşir Kərimov həmkəndlisi və yaxın qonşusu Haqverdi Haqverdiyevin uşaqlıq illəri, Qazax seminariyasındakı təhsil illəri, müəllimlik fəaliyyəti, nəhayət, 1941-1945-ci illər II Dünya Müharibəsində iştirakı və qəhrəmanlıqla həlak olması haqda, eləcə də II Qarabağ müharibəsində qəhrəmanlıqla şəhid olmuş Feyruz Hacıyevin döyüş yolu, I və II Qarabağ müharibəsində igidliklər göstərmiş vətən oğullarımızın döyüş yolu ilə bağlı maraqlı faktlar verilib.

Həmçinin kitabda Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov ənənələrinin ləyaqətlə təmsilçilərindən biri, öz mühəndislik qabiliyyəti və yüksək təşkilatçılığı ilə nəinki köhnə Sovetlər məkanında, hətta İttifaqdan kənarda bir neçə dünya ölkələrində tanınmış böyük mütəxəssis Əhməd Haqverdiyev haqqında maraqlı həyat hekayəsi verilib.

Cavanşir Kərimov ömrümüzün davamı, gələcəyimiz olan uşaqları - kiçik nəsli də unutmayıb, onlara sonsuz sevgi və məhəbbət əlaməti olaraq xüsusi diqqət yetirib, 100-ə yaxın şəkil verib balaca fidanları sevindirib.

Şairin doğmaları, dostları, tanışları, iş yoldaşları və qarşılaşdığı maraqlı insanlar da bu kitabda özünə yer alıb.

Daha sonda müəllifin bədii yaradıcılığı, müxtəlif səpkili şeirləri və iri həcmli poeziya nümunələri də bu kitabda öz əksini tapıb. Cavanşir Kərimov özünün saf və təmiz mənəvi aləmini şairlik dünyasına gətirib desək, yanılmarıq. Onun şeirlərində vətənpərvərlik, insanın hissləri, arzuları, vətən - ana, bacı-qardaş sevgisi, təbiət sevgisi geniş yer alıb, torpağa, dövlətə məhəbbət daha güclüdür. Şairin axıcı dili, yaddaqalan, könül açan, saf sevgi duyğularını özündə əks etdirən şeirləri insan qəlbini riqqətə gətirir. Dahi alman şairi Höte deyirdi: ”Mənim bütün yaradıcılığım həyati vəziyyətlər haqqındakı şeirlərdir. Onlar gerçəklikdən ilhamlanaraq, təsirlənərək yazılıb, onların əsasında yaranıb. Mən heç nəyə əsaslanmayan şeirləri sadəcə olaraq yaza bilmirəm”. Cavanşir Kərimovun bütün kitabları, o cümlədən ”Vətən sevgisi” kitabındakı şeirləri dahi alman şairinin vurğuladığı poeziyanın və sənətin bu qızıl qaydası əsasında yaranıb desək, əsla yanılmarıq.

Güman edirəm ki, tələbkar oxucularımız bu kitabı oxumağa sərf etdikləri vaxta təəssüflənməyəcək. Əlbəttə, bu oxucuları ilə müəllifin son görüşü deyil. Cavanşir Kərimov öz xeyriyyəçilik missiyasına sadiq qalaraq hələ neçə-neçə kitablar nəşr etdirməklə oxucularını sevindirəcək.

**Publisist ƏliSultan Səmədoğlu,**
**Redaktor-jurnalist Ülviyyə İsrafilova**

# "Mən Bred Pitt olacağam"

## Elvin 2022-ci ildə görünüşündə dəyişiklik edəcəyini deyib



**”Ailə ilə sənət bir arada çətindir. İllərdir bunu qoruyub saxlayıram. Həyat yoldaşım da başa düşən biridir”.**

Bu sözləri müğənni Elvin Abdullayev ”Özəl” proqramında deyib. Sənətçi ailəsindən, sənətindən danışıb. Elvin Azərbaycan kanallarına baxmadığını deyənləri tənqid edib:

”Azərbaycanlısansa, niyə baxmamalısan? Hər şeydən xəbərdar olmalısan. O sözü deyən insanlara yazığım gəlir. Düzdür, mən də bəzi verilişlərlə razı deyiləm. Amma baxılmalı səviyyəli proqramlar var”.

Elvin 2022-ci ildə görünüşündə dəyişiklik edəcəyini açıqlayıb: ”Hərdən dostlarıma deyirəm ki, Bred Pitti tanıyırsınız? Baxın, 2022-ci ildə Bred Pitt olacağam. Həm sənət, həm görünüş baxımından. 35 yaşım var, həyatda ən qorxduğum tamaşaçı sevgisizliyidir. Kimsə deyəndə yaşlanmısan, pis oluram. Bu yaxınlarda biri gəlib deyir ki, dəyişmisiniz. Soruşuram yaxşı, yoxsa pis? Deyir, əvvəl müğənniyə daha çox oxşayırdınız. Mənə qəribə təsir etdi bu söz”.

**Aygün Tahir**

# Van Damm Bakıya gələcək

## Səfər həftə sonu baş tuta bilər



**Dünya şöhrətli Hollivud aktyoru, aksiyon film ulduz Jan-Klod Van Damm yaxın zamanda Bakıya səfər edə bilər.**

Bu barədə məşhur azərbaycanlı kikboksçu Zabit Səmədov aparıcı Lalə Azərtaşın yutub layihəsinə müsahibəsində deyib. O, səfərin bu həftənin sonunda baş tuta biləcəyini vurğulayıb. O, bildirib ki, yaxın dostu aktyoru Bakıya gətirəcəyinə söz verib:

”Jan-Klod Van Dammın filmləri ilə böyümüşəm, onun hərəkətlərinə baxaraq döyüşməyi öyrənmişəm. Ola bilsin ki, mənim son döyüşümdə iştirak etsin”.

*Qeyd edək ki, sentyabrın 10-da Milli Gimnastika Arenasında Zabit Səmədovun vida döyüşü baş tutacaq. Onun rinqdəki rəqibi qarışıq döyüş növləri üzrə braziliyalı döyüşçü Antonio Silva olacaq.*

*Onu da qeyd edək ki, bir müddət əvvəl azərbaycanlı pianoçu Suada Hacızadə ilə ailəli olan Van Dammın oğlu Kristofer Van Damm da Azərbaycana səfər etmişdi.*



# "Xoşbəxt sabahlar" gəlir

## Oksananın verilişi bağlansa da kanaldakı fəaliyyəti dava edəcək

**Rəqqasə-aktrisa Oksana Rəsulovanın ”Xəzər TV”də yayımlanan ”Bu ana kimi” proqramı yayımını dayandırıb.**

Bu haqda sənətçi özü məlumat yayıb. O bildirib ki, verilişi bağlansa da kanaldakı fəaliyyəti dava edəcək.

Oksana tamaşaçı qarşısına ”Xoşbəxt sabahlar” proqramı ilə çıxacaq.

”Bu ana kimi” verlişi artıq ”Xoşbəxt sabahlar” kimi efirdə davam olacaq” deyə, Rəsulova paylaşımında qeyd edib.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2552



## Zooparkdan qaçan şimpanze velosipedlə qaytarıldı

**Ukraynanın Xarkov şəhərində zooparkdan qaçan "Çiki" adlı şimpanzeyə görə səlahiyyətlilər səfərbər olub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, bir müddət küçələrdə dolaşandan sonra şimpanzenin dayəsi yavaş-yavaş ona yaxınlaşmağa çalışıb. Qısa müddət sonra heyvanla ünsiyyət qurmağı bacarıb. Lakin o, şimpanzeni geri - zooparka götürə bilməyib.

Yağış başlayandan sonra baxıcısının yanına qayıdan "Çiki" əyninə paltar da geyinib.

Nəhayət, nadinc şimpanze üçün velosiped gətirilib.

"Çiki"ni velosipedə mindirərək zooparka aparmağa nail olublar.

**Turan**

## İranda köçəri xalqların çadırları günəş paneli ilə təmin ediləcək



**Qarşıdakı 2 il ərzində İranın dağlıq ərazilərində yaşayan köçəri tayfaların çadırları günəş paneli vasitəsilə elektrik enerjisi ilə təmin olunacaq.**

Azərtac xəbər verir ki, bu barədə İranın Köçəri Xalqlarla İş üzrə Dövlət Agentliyinin rəhbəri Abbas Papizadə məlumat verib. O bildirib ki, köçəri xalqların siyahıya alınması məsələsi həll olunduqdan sonra çadırların sayı müəyyənləşəcək. Bundan sonra hər çadır günəş paneli və əlavə cihazlarla təmin ediləcək.

*Qeyd edək ki, köçəri xalqlar İranın müxtəlif bölgələrində yaşayır və ölkənin kənd təsərrüfatının inkişafında, heyvandarlıq məhsulları ilə təmin olunmasında mühüm rol oynayırlar.*



## Hadisə uşaq istəmir

### Buna görə məşhur cütlük ayrılmaq ərəfəsindədirlər

**Ötən gün ayrılıq xəbərləri çıxan məşhur cütlük müğənni Hadisə ilə həyat yoldaşı iş adamı Mehmet Dinçerlerin hansı səbəbdən münasibətlərində problem yaşadığı ortaya çıxıb.**

Axşam.az xəbər verir ki, cütlüyün evliliyində yaranan problemin səbəbi uşaqla bağlıdır. Mehmet övlad istəsə də, Hadisə ağır iş qrafiki səbəbindən hələ ana olmağı düşünmür. İddialar arasında ikilini barışdırmaq üçün Hadisə ilə Mehmetin analarının məsələyə müdaxilə etdiyi bildirilib.

*Qeyd edək ki, Hadisəylə Mehmet aprelin 30-da nikah masasına oturub. Hazırda onların boşanma ərəfəsində olduğu iddia edilib. Lakin tərəflər məsələ ilə bağlı hər hansı açıqlama verməyib.*

## Yeni baş nazir Teylor Sviftin pərəstişkarıdır



**İngiltərənin yeni Baş naziri Liz Trass həm şəxsi həyatı, həm də siyasi tərəfi ilə diqqət çəkib.**

Britaniya mediası 47 yaşlı Trassın ulduz müğənni Teylor Svift pərəstişkarı olduğunu xəbər manşetlərinə çıxarıb.

Xəbərlərdə yeni baş nazirin üç il əvvəl maliyyə naziri olarkən qatıldığı mükafatlandırma mərasimində Teylor Sviftlə selfi çəkdirdiyi və bunu sosial mediada paylaşdığı xatırladılıb.

**Aygün**

## İtlə dostluq elə, çomağı yerə qoyma!

### Oğlunun saxladığı itlər ölümünə səbəb oldu



**Türkiyənin Zonquldak bölgəsində yaşayan Halimə Dəmir adlı qadın oğlunun bəslədiyi itlərin hücumuna məruz qalıb.**

"Şərq" "onedio.com"a istinadən xəbər verir ki, 7 itin hücumuna məruz qalan qadının cansız meyiti yaşadığı evin bağından tapılıb. Halimə Dəmir Dəvrək mahalının Çaydəyirməni mahalının Burhanoğlu kəndindəki evindən çıxaraq həmin kənddəki digər evinin bağçasına ot yığmağa gedib. Almaniyada yaşayan qızı ötən bazar günü ondan xəbər ala bilməyib. Halimə Dəmiri axtarmağa başlayan qardaşı qızı onu bağda hərəkətsiz vəziyyətdə görüb. Hadisə yerinə təcili tibbi yardım və polislər gəlib. Həkimlər başında, qollarında və ayaqlarında hücum izləri olan qadının həyatını xilas edə bilməyiblər. Prokurorlar həmin itlərin sığınacağa aparılmasına göstəriş verib. Qadının oğlu Turan Dəmir isə dərhal itlərin oradan çıxarılmasını tələb edib. Prokurorluqdan bildirilib ki, həmin itlər öldürülməyəcək. Sadəcə olaraq təhlükəsizlik üçün bundan sonra sığınacaqda saxlanılacaqlar.

**Günəş**



# Ənənə yaşayır



### Obama Ağ Evə döndü, hamını güldürdü

**ABŞ-ın keçmiş 44-cü prezidenti Barak Obama və keçmiş birinci xanım Mişel Obamanın rəsmi portretləri ilk dəfə ictimaiyyət qarşısına çıxarılıb. Obama cütlüyü rəsmi portretlərinin təqdimat mərasimində iştirak etmək üçün Ağ Evi ziyarət ediblər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, kameralar qarşısına keçən Barak Obama çıxışının əvvəlində keçən il baş vermiş Kapitol basqınını xatırladaraq tamaşaçıları güldürməyi bacarıb.

"Qonaqpərvərliyiniz üçün təşəkkür edirik. Bir neçə dostumuzu dəvət etməyimizə icazə verdiyiniz üçün də minnətdarıq. Buranı sökməməyə çalışacağıq".

Obama daha sonra əlavə edib: "Bəzilərinizlə əlaqə saxladıq. Öz ailələrinizi qurduğunuzu görəndə çox həyəcanlandım. Bununla belə, hələ heç kimin övladına Barak və ya Mişel adını qoyduğunu eşitmədiyim üçün bir az məyus oldum. Amma hələ vaxt var". Obamanın bu zarafatlarından avtoportret çəkən rəssam Robert Makkurdi öz payını alıb.

Keçmiş Prezident deyib: "Robertin işində ən çox sevdiyim şey insanları olduğu kimi çəkməsidir, daha yaxşı və ya pis deyil. O, üzünüzdəki hər qırışığı, köynəyinizdəki hər qırışığı çəkir. Görürsünüz ki, o, mənim xahişlərimi rədd etdi". Saçımdakı ağları gizlət, ya da qulaqlarımı kiçilt" demişdim, amma əhəmiyyət vermədi.



Mərasimdə ABŞ Prezidenti Co Bayden də iştirak edib. Obama səlahiyyət müddətində vitse-prezident kimi çalışdığı Co Bayden haqqında da yüksək fikirlər söyləyib.

Hazırkı prezidentin sələfinin rəsmi portretini təntənəli şəkildə açması və onun portretlərini Ağ Evin divarından asması Ağ Evin bir ənənəsidir. Lakin Obamadan sonra prezidentlik kreslosuna əyləşən Donald Tramp bir çox ənənələrə əməl etməyib və Obamaları da unudub.

**Turan Can**





# Tarixin ən böyük qətliamı...

### Axtarışda olan qardaşlardan ikincisi də öldü




**Kanadada 10 nəfəri bıçaqla öldürən, 18 nəfəri isə yaralayan qardaşlardan biri olan Mayls Sanderson polis tərəfindən yaxalanıb. Lakin Sanderson bir müddət sonra özünü pis hiss edib və xəstəxanada dünyasını dəyişib.**

Kanada tarixinin ən böyük qətliamlarından birini həyata keçirən Sanderson qardaşlarından olan qaçaq Mayls Sandersonun öldüyü açıqlanıb. 32 yaşlı Sanderson 4 gün idi ki, polis tərəfindən axtarışda idi.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, qaçaq qardaşın Saskaçevan ştatının Rostern yaxınlığında ağ rəngli pikapda olduğu bildirilir. Polis şəhər sakinlərinə evdə qalmaları barədə xəbərdarlıq edib. Bir müddət sonra təcavüzkarla polis arasında təqib başlayıb.

Polis Sandersonun avtomobilini şəhərdən kənarda vuraraq onu yoldan çıxarıb. Hücum edən şəxs daha sonra yaxalanıb və əlləri qandallanıb. Bir müddət sonra onun halı pisləşib və öldüyü xəbəri gəlib.

Bu məlumatdan bir müddət əvvəl isə Kanada mətbuatında Sandersonun intihar etdiyi xəbəri yayılmışdı. Hadisə ilə bağlı Kanada polisinin komissar müavini də sorğulanıb.

"O, tutulan zaman avtomobildə tək idi. Bir müddət sonra rahatsızlandı. Ölümün səbəbi ilə bağlı dəqiq bir söz deyə bilmərəm, yarılma nəticəsində məlum olacaq", - deyə o bildirib.

Digər bir məlumata görə, Mayls Sandersonun xeyli böyük cinayət işləri var. Şərti azadlığa buraxılan Sanderson 59 maddə üzrə məhkum edilib.

Lakin 4 il həbsdə olan təcavüzkarın ötən fevral ayında azadlığa çıxdığı ortaya çıxıb. Bu vəziyyət kanadalılar tərəfindən sərt reaksiya ilə qarşılanıb. Kanada səlahiyyətliləri hələ də hücumçunun nə üçün sərbəst buraxıldığını araşdırır.

Qeyd edək ki, Mayles və Damien Sanderson qardaşları ötən bazar günü Saskaçevan əyalətində 13 fərqli yerdə bıçaqlı hücumlar həyata keçiriblər. Bu hücumlarda 10 nəfər ölüb, 18 nəfər yaralanıb. Yaralılardan 10-nun müalicəsi xəstəxanada davam edir, 3 nəfərin həyatı isə hələ də təhlükə altındadır.

Axtarış zamanı Damien Sandersonun meyiti üzərində bıçaq yaraları aşkar edilib. Damienin Mayles tərəfindən öldürülməsi ehtimalı da nəzərdən keçirilir.

Ötən gün qatillər anası Amerikanın "CBC News" kanalına "Bu dəhşətli vəziyyətdən zərər çəkən və təsirlənən hər kəsdən üzr istəyirəm" demişdi.

**Turan**

## Balasını qorumaq üçün pələnglə savaşdı

### Ağciyəri deşilmiş cəsarətli ana hazırda reanimasiyadadır

**Hindistanın Madhya Pradeş ştatında qadın 15 aylıq körpəsini xilas etmək üçün pələnglə döyüşərkən ağır yaralanıb. 25 yaşlı Archana Choudhary adlı qadının yardım çağırışını eşidən kənd sakinləri köməyə qaçıblar. Ana və oğlu hazırda reanimasiyadadırlar.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Hindistan səlahiyyətliləri, körpəsini həyatı bahasına qoruyan ana ilə pələng arasında döyüşün keçən bazar günü Bandhavgarh Pələng Qoruğunda baş verdiyini açıqlayıb.

Qeyd olunub ki, pələng qoruğunun yaxınlığında yaşayan insanlarla heyvanlar arasında belə münaqişələr tez-tez baş verir. Ərazidə yaşayan sakinlər kəndlərinə pələnglərdən başqa fillərin də girdiyini və əkin sahələrinə ziyan vurduğunu bildiriblər.



Mütəxəssislər isə hesab edir ki, insanlar heyvanların təbii yaşayış yerlərini məhv edir. Ona görə də vəhşi heyvanlar ov və sığınacaq axtararaq kəndlərə, şəhərlərə axışırlar.

Son hadisədə, Archana Choudhary və körpəsi tarlada olarkən, pələng kolların arasından çıxıb və körpəyə hücum edib.

Yerli media xəbər verir ki, pələng dişlərini körpənin başına sancıb və ana dərhal müdaxilə edərək vəhşi heyvanla mübarizəyə başlayıb. Qadının kömək çığırtılarından dərhal sonra kənd sakinləri ağaclarla silahlanıb pələngi zərərsizləşdiriblər.

Pələngin hücumu nəticəsində ananın ağciyərinin deşildiyi və bədənində dərin yaraların olduğu bildirilib.

Mövzuya münasibət bildirən Dr. Misthi Ruhela, "Ana və uşaq hazırda reanimasiya şöbəsində müalicə olunur. Onlara quduzluğa qarşı peyvənd vurulub. Uşaqdakı xəsarətlərin həyati təhlükəsi olmasa da, ananın vəziyyəti ağır olaraq qalır.

Pələng hücumundan sonra kəndlilər arasında çaxnaşma yaranıb. Səlahiyyətlilər deyib ki, onların ən böyük problemi kəndə girmiş pələngi tapmaq və yaxalamaqdır.

**Turan**